DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 12 (317) / DEKABR 2017-Cİ İL



# Dünya azərbaycanlılarına

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

***Bayramınız mübarək olsun!***

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 dekabr 2017-ci il

**Prezident İlham Əliyev: İslam həmrəyliyi bizim üçün şüar deyil, əsas istiqamətlərdən biridir**



Səh. 2

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya Moskvada Müqəddəs Mələksima Knyaginya Olqa ordeni təqdim edilib**



Səh. 4

**ZƏFƏRİN BAYRAQDARI**



Səh. 6

Cocuq Mərcanlı məscidi dini icması dövlət qeydiyyatına alınıb



Səh. 8

**"İSLAM HƏMRƏYLİYİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN FƏALİYYƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ"**



Səh. 10

**LƏNKƏRAN BÖLGƏSİNİN DİNİ-TARİXİ ƏNƏNƏLƏRİ VƏ MÜASİRLİK**



Səh. 13

## “2017-İSLAM HƏMRƏYLİYİ İLİ: DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ”

# Prezident İlham Əliyev: İslam həmrəyliyi bizim üçün şüar deyil, əsas istiqamətlərdən biridir




Dekabrın 21-də Bakıda, Heydər Əliyev Mərkəzində “2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda beynəlxalq konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransın açılış mərasimində iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən “İslam Həmrəyliyi İli”nin yekunlaşması ilə bağlı keçirilən konfrans Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən birgə təşkil olunub.

Beynəlxalq konfransın açılışında 40-a yaxın ölkədən 150-dək nümayəndə, o cümlədən tanınmış dövlət, din və elm xadimləri, 8 beynəlxalq təşkilatın rəhbərləri və təmsilçiləri, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələri, dini konfessiya rəhbərləri, hökumətin və parlamentin üzvləri, diplomatik korpusun və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Konfrans müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda nitq söyləyib.

**Prezident İlham Əliyevin nitqi**

-Hörmətli din xadimləri.

Hörmətli xanımlar və cənablar.

Bildiyiniz kimi, 2017-ci il Azərbaycanda “İslam Həmrəyliyi İli” elan edilmişdir. İl ərzində Azərbaycanda və bir çox ölkələrdə beynəlxalq konfranslar, tədbirlər keçirilmişdir. Sonuncu beynəlxalq konfrans isə bu gün Bakıda öz işinə başlayır. Mən konfransda iştirak etmək üçün ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram, onlara “Xoş gəlmisiniz!” deyirəm. Qeyd etməliyəm ki, bu gün konfransda 40-a yaxın ölkədən 150-dək xarici qonaq iştirak edir. Hörmətli qonaqlarımızın iştirakı bu konfransın və bu mövzunun əhəmiyyətini bir daha göstərir.

Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfələr verir. Bu məsələ bizim üçün prioritet məsələlərdən biridir. Azərbaycan qədim tarixə malik olan bir ölkədir. Azərbaycan xalqı əsrlər boyu öz milli mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir.

Xalqımız qədim tarixə malikdir. Bizim dini memarlıq abidələrimiz bunun əyani sübutudur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş, Azərbaycan xalqı tərəfindən qorunmuş və bir neçə il bundan əvvəl əsaslı şəkildə bərpa edilmiş Şamaxı Cümə məscidi bizim böyük sərvətimizdir. Bu məscid onu göstərir ki, Azərbaycan qədim müsəlman diyarıdır. Bizim digər tarixi dini abidələrimiz də milli sərvətimizdir.

Azərbaycan beynəlxalq aləmdə müsəlman ölkələri ilə çox yaxın münasibətlər qura bilmişdir. Biz cəmi 26 ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Bu illər ərzində ikitərəfli və üçtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir, gündəngünə güclənir. Biz BMT-də və digər beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Keçən il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı çox önəmli qətnamə qəbul edilmişdir və Kontakt Qrupu yaradılmışdır. Onu da qeyd etməliyəm ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının çox fəal üzvüdür, ölkəmizdə bir çox konfranslar, tədbirlər keçirilmişdir. Azərbaycanın təşəbbüsü ilə İƏT-in Gənclər Forumu, Əmək Mərkəzi və Jurnalistlər Assosiasiyası yaradılmışdır. Eyni zamanda, Azərbaycan ISESCO-nun fəal üzvüdür. ISESCO İslam aləminin təhsil, elm, mədəniyyət təşkilatıdır və bu təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir. Beləliklə, ISESCO və bütün müsəlman aləmi Azərbaycana daim diqqət və dəstək göstərir. Bir neçə il bundan əvvəl ISESCO tərəfindən Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmişdir və bir il ərzində ölkəmizdə, Bakıda bir çox tədbirlər keçirilmişdir. Qeyd etməliyəm ki, gələn il isə bizim digər qədim şəhərimiz – Naxçıvan İslam mədəniyyəti paytaxtı adına layiq görülübdür.

Ölkə daxilində İslam həmrəyliyi tam təmin olunubdur. Biz çalışırıq və çalışmalıyıq ki, bütün müsəlman aləmində birlik, həmrəylik təmin olunsun. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir, önəmli addımları atır. Bizim beynəlxalq təşkilatlar çərçivəsində və dünya gündəliyində duran məsələlərin həlli işində onlara münasibətimiz bir daha göstərir ki, İslam həmrəyliyi bizim üçün, sadəcə olaraq, bir şüar deyil, bizim üçün bu, əsas istiqamətlərdən biridir.

Bununla bərabər, Azərbaycanda bütün dinlərin nümayəndələri eyni, bərabər hüquqlara malikdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, heç bir ayrı-seçkilik yoxdur, olmayıb və ola da bilməz. Bu, bizim böyük sərvətimizdir.

Ölkəmizdə dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu qeyd edə bilərəm. Bir neçə dəfə keçirilmiş və ənənəvi xarakter alan Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Humanitar Forumu da, ilk növbədə, öz işini dinlərarası, mədəniyyətlərarası dialoqa həsr etmişdir. Belə beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi təbiidir. Çünki ilk növbədə, Azərbaycan sivilizasiyalar arasında həmişə müsbət rolunu oynayıb və Asiya ilə Avropa arasında həm coğrafi, həm mədəni və bu gün siyasi baxımdan bir körpü rolunu oynayır. Digər tərəfdən, Azərbaycan o ölkələrdəndir ki, burada dini, milli zəmində heç bir problem yoxdur, heç bir - hətta kiçik bir anlaşılmazlıq yoxdur. Əksinə, Azərbaycanda yaşayan bütün millətlər, bütün dinlərin nümayəndələri bizim dəyərli vətəndaşlarımızdır və ölkəmizin ümumi inkişafına öz töhfələrini verirlər. Ona görə məhz Azərbaycanın dinlərarası dialoq işində fəal olması təbiidir.

Mən bir daha qeyd etmək istəyirəm ki, ölkə daxilində bu məsələlər ən yüksək səviyyədə həllini tapıbdır. Biz istəyirik ki, həm müsəlman aləmində, həm Avropada, ümumiyyətlə, dünyada dinlərarası dialoq güclənsin. Əfsuslar olsun ki, son vaxtlar biz tam əks mənzərə ilə üzləşirik - dözümsüzlük, islamofobiya, ksenofobiya, antisemitizm artır. Bu, bəşəriyyət üçün böyük təhlükədir və böyük bəladır. Din xadimlərinin, ictimai xadimlərin, siyasətçilərin, geniş ictimaiyyətin bu məsələ ilə bağlı fikri və mövqeyi əlbəttə ki, dünya ictimaiyyəti üçün də çox önəmlidir. Bakıdan, yüksək mötəbər kürsülərdən dəfələrlə dünyaya çağırış edilmişdir ki, dinlərarası münasibətlər hər bir ölkə üçün önəmlidir. Dünyada əksər ölkələr çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Belə olan halda bu mövzu vətəndaş sülhü, vətəndaş həmrəyliyi üçün, hər bir ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Biz öz tərəfimizdən ölkə daxilində bütün məsələləri ən yüksək səviyyədə həll edirik. Eyni zamanda, əminəm ki, bölgədə və dünyada Azərbaycan təcrübəsi öyrənilir.

Azərbaycan keçən ili “Multikulturalizm İli” elan etmişdi. Multikulturalizm bizim dövlət siyasətimizdir, eyni zamanda, həyat tərzimizdir. Azərbaycanda yaşayan bütün dinlərin, millətlərin nümayəndələri bunu təsdiq edə bilərlər. Multikulturalizmin alternativi yoxdur. Alternativ dünyanı, ölkələri sarsıdan çox təhlükəli meyillər - islamofobiya, ksenofobiya, antisemitizmdir. Dünya Azərbaycanın timsalında görür ki, multikulturalizm yaşayır. Lakin multikulturalizmlə bağlı bəzən çox bədbin fikirlər səslənir, özü də yüksək səviyyədən. Buna baxmayaraq, biz hamımız çalışmalıyıq ki, bu ülvi dəyərləri qoruyaq, möhkəmləndirək. Multikulturalizm hər bir ölkə üçün adi hala çevrilməlidir.

Qeyd etdiyim kimi, Azərbaycanın İslam ölkələri ilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həm özəl münasibətləri var, həm də Azərbaycan bu təşkilat çərçivəsində fəal rol oynayır və böyük dəstəyə malikdir. Eyni zamanda, bizim Avropa ölkələri ilə də sıx əlaqələrimiz var. Avropa İttifaqına üzv 9 ölkə ilə Azərbaycan strateji tərəfdaşlıq sənədi imzalamışdır. Yəni, bu da Avropa İttifaqının üzvlərinin üçdəbir hissəsidir. Avropa İttifaqı ilə də bizim çox sıx əlaqələrimiz var. Bir sıra məsələlər ətrafında çox ciddi iş gedir və bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək saziş üzərində iş başlamışdır. Bu, bir daha ölkəmizin həm beynəlxalq gündəlikdə duran məsələlərə münasibətini, eyni zamanda, bizim siyasətimizi əks etdirir. Azərbaycan xalqı öz milli mənəvi köklərinə çox bağlıdır. Müstəqil Azərbaycan dövlətinin təməli məhz bu milli dəyərlərdir. Bizim milli dəyərlərimiz isə ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Həm coğrafi yerləşməyimiz, bizim tariximiz, sivilizasiyaların Azərbaycan ərazisindəki keçmişi və rolu, əlbəttə ki, Azərbaycanı, bax, dinlərarası, mədəniyyətlərarası dialoqun aparılmasında əvəzolunmaz ölkəyə çevirir.

Bir məsələni də qeyd etməliyəm ki, əlbəttə, bu istiqamətdə dövlət siyasəti aparılır və aparılacaq. Ancaq bizim bu istiqamətdəki siyasətimiz ictimai rəyə söykənir. Çünki Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı bu duyğularla, bu fikirlərlə yaşayır. Bizim uğurlu inkişafımız göstərir ki, dinlərarası, millətlərarası münasibətlər lazımi səviyyədə olanda inkişaf da, sabitlik də olur və bütün Azərbaycan vətəndaşları gələcəyə də nikbinliklə baxırlar.

Bu il biz İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə keçirmişik. IV İslam Həmrəyliyi Oyunları Bakıda keçirilmişdir. Əllidən artıq ölkədən

davamı səh. 3

## “2017-İSLAM HƏMRƏYLİYİ İLİ: DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ”

# Prezident İlham Əliyev: İslam həmrəyliyi bizim üçün şüar deyil, əsas istiqamətlərdən biridir



əvvəli səh. 2

3 mindən çox idmançı, minlərlə qonaq gəlmişdi. Bu, həm böyük idman yarışı idi, eyni zamanda, bu, bir dostluq bayramı, qardaşlıq bayramı idi. Bütün İslam ölkələrinin aparıcı idmançıları Bakıda idilər. Əlbəttə, biz fəxr edirik ki, Azərbaycan milli komandası bu yarışların qalibi oldu, birinci yerə layiq görüldü. Amma əsas məsələ bunda deyil. Əsas məsələ ondadır ki, bu Oyunlar bir daha göstərdi ki, İslam həmrəyliyi var və gənc nəsil gərək gələcəkdə bu gözəl dəyərləri daim dərk etsin və gücləndirsin. İki il bundan əvvəl isə Bakıda tarixdə ilk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Digər qitə oyunlarından fərqli olaraq, Avropa Oyunları 2015-ci ilə qədər heç vaxt keçirilməmişdir. İlk Avropa Oyunları Azərbaycanda keçirilmişdir və Avropadan 5 mindən çox idmançı burada yarışırdı, minlərlə qonaq gəlmişdi. Azərbaycan komandası bu Oyunlarda ikinci yerə layiq görüldü.

Yəni, bu iki hadisə özlüyündə bir göstəricidir. Əlbəttə ki, bunlar böyük, möhtəşəm idman tədbirləri idi. Amma, eyni zamanda, həm Avropa, həm İslam Oyunlarının iki il ərzində bir şəhərdə, bir ölkədə keçirilməsi həm Avropa, həm İslam aləminin bizə olan münasibətini göstərir, həmçinin onu göstərir ki, bir daha dediyim fikirlərə qayıdıram - Azərbaycan sivilizasiyalar, dinlər və qitələr arasında nadir rol oynayır.

Digər önəmli təşəbbüs 2008-ci ildə Azərbaycan tərəfindən irəli sürülmüşdür. Bildiyiniz kimi, Azərbaycan, eyni zamanda, Avropa Şurasının üzvüdür. Biz belə qərara gəldik ki, Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət edək. Tarixdə ilk dəfə olaraq iki təşkilatın nazirləri Bakıda görüşdülər. Çox səmərəli görüş keçirilmişdir, çox səmimi fikir mübadiləsi aparılmışdır. Biz hesab etdik ki, bu təşəbbüsün davamı olmalıdır, yəni, bu, sadəcə olaraq, bir görüş olmamalıdır. Bu məqsədlə növbəti il biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin tədbirini keçirdik və Avropadan nazirləri dəvət etdik. Yəni, bu, artıq ənənəyə çevrildi və sonra bu təşəbbüsə “Bakı Prosesi” adı verildi. Bu gün “Bakı Prosesi” yaşayır, inkişaf edir. Gələn il biz “Bakı Prosesi”nin on illik yubileyini qeyd edəcəyik. “Bakı Prosesi” bütün beynəlxalq mötəbər təşkilatlar tərəfindən, xüsusilə BMT tərəfindən çox yüksək qiymətləndirilir. Bu, İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurası arasında əlaqələrin inkişafı üçün dünya miqyasında nadir bir platformadır. Yenə də təşəbbüs Azərbaycan tərəfindən gəldi.

Əminəm ki, biz belə təşəbbüslərlə ümumi işimizə töhfə veririk. Ümumi məqsədimiz ondan ibarətdir ki, dünyada sülh, qarşılıqlı hörmət, qarşılıqlı anlaşma olsun, ölkələr bir-birinin işinə qarışmasın. Belə olan halda müharibələr də olmayacaq və bütün dünyada sülh bərqərar olacaq.

Azərbaycan gənc müstəqil dövlətdir. Müstəqilliyimizin cəmi 26 yaşı var. Müstəqilliyin ilk illəri çox ağır keçmişdir, çox faciəvi hadisələr baş vermişdir. 1993-cü ilə qədər Azərbaycan demək olar ki, idarəolunmaz vəziyyətdə idi. Ölkədə xaos, anarxiya, iqtisadi böhran hökm sürürdü, inflyasiya min faizlərlə ölçülürdü, bütün sənaye müəssisələrimiz, demək olar ki, fəaliyyətsiz qalmışdı və ölkənin inkişafı üçün perspektivlər çox qaranlıq idi. Bundan əlavə, o vaxtkı hakimiyyət Azərbaycanda vətəndaş müharibəsinə start verdi və qardaş qanı axıtdı. Mənfur qonşu Ermənistan bundan istifadə edərək torpaqlarımızın bir hissəsini işğal etmişdir. Yəni, Azərbaycan demək olar ki, uçurum kənarında idi. Belə vəziyyətdə Azərbaycan xalqı özünə xas olan müdriklik göstərərək böyük lider Heydər Əliyevi hakimiyyətə dəvət etmişdir və 1993-cü ildən bu günə qədər Azərbaycan inkişaf və tərəqqi yolu ilə gedir. 1993-cü ildən başlanan siyasi, iqtisadi islahatlar, beynəlxalq arenada rolumuzun artması, ölkə daxilində bütün qanunsuz silahlı birləşmələrin tərksilah edilməsi, vətəndaş müharibəsinin dayandırılması, yeni Konstitusiyanın qəbul edilməsi və ölkəmizin strateji inkişafı ilə bağlı çox dəqiq qərarlar xalqımızı ağır vəziyyətdən çıxara bildi və bu gün də Azərbaycan uğurla inkişaf edir. Eyni zamanda, müstəqilliyin ilk illərində Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər də demək olar ki, pozulmuşdu. Yumşaq desək, bu sahədə, çox böyük səhvlər, dəqiq desək, cinayətlər törədilmişdir. Məhz Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanda bu sahədə də dönüş yarandı, dövlət-din münasibətləri lazımi səviyyədə quruldu. Bu gün dövlət-din münasibətlərinin səviyyəsinə və mahiyyətinə görə Azərbaycan bir çox ölkələr üçün nümunə ola bilər.

Bu gün 26 ildir müstəqil dövlət kimi yaşayan Azərbaycan ayaqda möhkəm dayanır. Əlbəttə ki, bizim əsas problemimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bildiyiniz kimi, Ermənistan beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımızın 20 faizini 20 ildən çoxdur ki, işğal edib. Bu torpaqlardan bir milyondan çox vətəndaş qovulub, qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənilər qanlı cinayət – Xocalı soyqırımını törətmişlər. Erməni quldurları tərəfindən 600-dən çox günahsız, dinc insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq qətlə yetirilmişdir. Xocalı soyqırımını 10-dan çox ölkə artıq soyqırımı kimi tanıyıb.

BMT münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz geri çəkilməlidir. Ancaq bu qətnamələr kağızda qalıb. Bu qətnamələri qəbul edənlər bu məsələyə biganə qalırlar. Ermənistan da bundan istifadə edərək öz işğalçı siyasətini davam etdirir. İşğal edilmiş torpaqlarımızda bütün binalar dağıdılıb. Bizim tarixi, dini abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıb. Bu dağılmış məscidlərin fotoşəkilləri indi internetdə kifayət qədər dərc edilib, bunu hər bir insan görə bilər. Bütün infrastruktur dağıdılıb. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərmişdir. O missiyalar dediyim mənzərə ilə üzləşmişlər və öz məruzələrində bunu əks etdirmişlər.

Münaqişə ilə bağlı Azərbaycan dövlətinin mövqeyi beynəlxalq hüquqa tam əsaslanır. İlk növbədə, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, tarixi torpağıdır, digər tərəfdən, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Belə olan halda münaqişə yalnız və yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, BMT Təhlükəsizlik Şurasının qətnamələri, - bu sənədlərdən daha üstün sənəd dünyada yoxdur, - tam icra edilməlidir və ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan dövləti və Azərbaycan xalqı öz torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək.

O ki qaldı, xalqların öz müqəddəratını təyin etməsi məsələsinə, bu məsələ ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Qeyd etdiyim kimi, dünyanın əksər ölkələri çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Ermənistan xalqı öz müqəddəratını təyin edib, onların öz dövlətləri var. İkinci erməni dövlətinin tarixi Azərbaycan torpaqlarında yaradılmasına Azərbaycan heç vaxt imkan verməyəcək. Bu, əslində çox zərərli, təhlükəli və xəstə bir məntiqdir. Ermənilər bir çox ölkələrdə yaşayırlar. İndi əgər onlar yaşadıqları bütün ölkələrdə Azərbaycandakı kimi öz müqəddəratını təyin etmək arzusuna düşərlərsə və aqressiv separatizmə əl atarlarsa, onda baxarıq o ölkələrin siyasəti necə olacaq.

Bu gün dünyada gedən proseslər bizim mövqeyimizi dəstəkləyir və gücləndirir. Qeyd etdiyim kimi, həm beynəlxalq hüquq, həm tarix, həm potensial baxımından bizim mövqeyimiz kifayət qədər güclüdür. Ancaq bu gün Avropa da separatizmlə üzləşir. Görün, Avropa ölkələrində separatizmə qarşı hansı addımlar atılır. Bizim problemimiz aqressiv separatizmdir. Əli silahlı erməni quldur dəstələri soyqırımı törətmişlər, zor gücü ilə torpaqlarımızı işğal etmişlər, günahsız insanları bu torpaqlardan qovmuşlar və bu gün bu torpaqlarda qanunsuz fəaliyyətlə məşğuldurlar. Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Bunun üçün bütün imkanlar var və son hadisələr – keçən ilin hadisələri bunu bir daha göstərir. Ölkəmizin ərazi bütövlüyü bütün başqa ölkələrin ərazi bütövlüyü qədər qiymətlidir və dəyərlidir.

Bu böyük və çətin problemə baxmayaraq, ölkəmiz uğurla inkişaf edir. Biz beynəlxalq arenada çox etibarlı tərəfdaşa çevrildik, bir neçə il bundan əvvəl 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Bu, bizim böyük siyasi qələbəmiz idi. Çünki o vaxt Azərbaycan cəmi 20 il idi ki, müstəqil ölkə kimi yaşayırdı və bu illər ərzində beynəlxalq ictimaiyyətin rəğbətini qazana bilmişdir. Ölkədə çox ciddi iqtisadi islahatlar aparılır. İqtisadi inkişaf baxımından Azərbaycan son 14 il ərzində dünyada ən sürətlə inkişaf edən ölkədir. İqtisadiyyatımız, ümumi daxili məhsul 3 dəfədən çox artmışdır.

Biz, eyni zamanda, çox ciddi sosial siyasət aparırıq və bunun nəticəsində Azərbaycanda işsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. İnsan kapitalına böyük sərmayə qoyulur. Son 14 il ərzində ölkəmizdə üç mindən çox məktəb, 600-dən çox tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir, 12 min kilometr yol inşa edilmişdir və digər lazımi sosial infrastruktur yaradılır. Beynəlxalq maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Sadəcə bir rəqəmi demək kifayətdir ki, bu barədə təsəvvür olsun: Ümumdünya Davos İqtisadi Forumu Azərbaycanı ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Yəni, bu, çox böyük göstəricidir və biz bu göstəriciyə enerji resursları hesabına çatmamışıq. Əlbəttə ki,

davamı səh. 5

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya Moskvada Müqəddəs Mələksima Knyaginya Olqa ordeni təqdim edilib



***Moskvanın və bütün Rusiyanın patriarxı Kirill Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edib.***

Dekabrın 26-da Moskvadakı Xilaskar İsa Məbədində Azərbaycanın Birinci vitse-prezidentinə ordenin təqdim edilməsi mərasimi keçirilib.

Əvvəlcə Moskvanın və bütün Rusiyanın patriarxı Kirillin Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif olunması haqqında Fərmanı oxunub.

Sonra Moskvanın və bütün Rusiyanın patriarxı Kirill Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordenini təqdim edib.

Mərasimdə çıxış edən Patriarx Kirill deyib:

- Mən Sizə gördüyünüz işlərə görə səmimi qəlbdən təşəkkür etmək istərdim. Siz ölkənizin və xalqınızın həyatında çox mühüm rol oynayırsınız. Böyük istedada və gözəl mənəvi keyfiyyətlərə malik bir insan kimi Siz Vətəninizdən uzaqlarda da bir çox işlər görürsünüz. Bu gün Sizə Rus Pravoslav Kilsəsinin fəaliyyətinə köməyə və Həştərxan şəhərinin həyatında xüsusi iştirakınıza görə mükafat təqdim edilib. Həştərxana səfər edəndə mənə bir çox işlər barədə danışdılar. Amma yəqin ki, ən çox Sizin haqqınızda və bu şəhər üçün gördüyünüz bir çox işlər barədə danışdılar. Məhz buna görə Həştərxanda olarkən mən Sizi Rus Pravoslav Kilsəsinin Müqəddəs Mələksima Knyaginya Olqa ordeninə layiq görülməyiniz barədə qərar qəbul etdim. Knyaginya Olqa Rusiyanı xristianlaşdıran və vahid rus dövlətinin qurulmasında həlledici rol oynayan Knyaz Vladimirin nənəsi olub.

Mən Sizə təşəkkürümü bildirərək Tanrıdan işlərinizə kömək, Sizə və möhtərəm həyat yoldaşınıza möhkəm cansağlığı, siyasi və peşəkar fəaliyyətinizdə uğurlar, bütün Azərbaycan xalqına firavanlıq diləmək istərdim. Bu görüşümüzə, Sizə öz ehtiramımı, minnətdarlığımı bildirmək və bu yüksək mükafatı təqdim etmək imkanına görə ürəkdən şadam.

* * *

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə çıxış edərək deyib:

- Sağ olun, Zati-müqəddəsləri. Belə fəxri mükafata və fəaliyyətimi bu cür yüksək qiymətləndirdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Bu ordeni mənə Siz təqdim etdiyinizə görə xüsusi fərəh duyuram. Sizə səmimi qəlbdən təşəkkür edirəm, Sizə və Sizin yüksək missiyanıza sonsuz hörmətimi ifadə edirəm. Siz insanlara dini və mənəvi, düzgünlük və ədalət, humanizm və şəfqət, yaxşılıq etmək, adamlara kömək göstərmək kimi fundamental bəşəri dəyərləri çatdırırsınız. Biz Azərbaycanda Sizin ölkəmizə səfərinizi çox yaxşı xatırlayırıq. Biz Sizin mədəni və mənəvi irsin qorunmasındakı xidmətlərinizi, cəmiyyətdə qarşılıqlı anlaşmanın, qarşılıqlı hörmətin və həmrəyliyin bərqərar olmasına yönələn fəal sülhpərvər və maarifçilik fəaliyyətinizi yüksək qiymətləndiririk. Paytaxtımıza son səfəriniz zamanı Siz Təzəpir məscidini ziyarət etdiniz və Bakıdakı Müqəddəs Mirodaşıyan kafedral kilsəsində ibadət etdiniz. Bununla da Siz bir daha vurğuladınız ki, istənilən etiqad, istənilən din insanları birləşdirməyə və barışdırmağa xidmət edir.

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir. Multikulturalizm, qarşılıqlı hörmət xalqımızın dünyagörüşünün və Azərbaycan hökumətinin dövlət siyasətinin əsasını təşkil edir. Azərbaycan torpağında müxtəlif konfessiyaların, müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələri əsrlər boyu sülh və həmrəylik şəraitində yaşayıblar. Ölkəmizin ərazisində yaşayan bütün xalqların bu mədəni müxtəlifliyi, heç şübhəsiz, bizim sərvətimizdir. Bu sözlər, rus pravoslav icmasına da bütünlüklə aiddir. Bu gün Azərbaycanda Rus Pravoslav Kilsəsinə mənsub olan dindarların sayı 100 mindən çoxdur.

Son illər Azərbaycan dünyada tanınmış millətlərarası, dinlərarası və sivilizasiyalararası dialoq mərkəzlərindən birinə çevrilib. Ölkəmizin paytaxtında müntəzəm surətdə qarşılıqlı anlaşmaya və qarşılıqlı hörmətə nail olmağa yönəlmiş nüfuzlu beynəlxalq forumlar keçirilir. 2010-cu ildə bizim Vətənimizin paytaxtında Sizin də fəal iştirakınızla Dünya Dini Liderlərinin Ümumdünya Sammiti keçirildi. 2016-cı ildə Bakıda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu baş tutdu. Bu il dekabrın 21-də "İslam Həmrəyliyi İli"nin yekunlarına həsr edilmiş konfrans keçirildi və bu konfransın mövzusu yenə də xalqlar arasında, müxtəlif dinlərin nümayəndələri arasında dialoqun qurulması idi. Fürsətdən istifadə edib, bu konfransa göndərdiyiniz məktuba və Rus Pravoslav Kilsəsinin yüksək səviyyədə təmsil olunmasına görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.

Biz öz köklərinə, öz ənənələrinə, öz tarixinə çox hörmət edən ölkəyik. Lakin bununla bərabər, Azərbaycan dünyaya açıq ölkədir. Biz başqa dövlətlərlə, başqa ölkələrlə dostluq münasibətləri qurmaq istəyirik və bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər mehriban qonşuluq, qarşılıqlı hörmət və dostluq əsasında qurulur. Azərbaycan və Rusiya strateji tərəfdaşlardır və əlbəttə ki, bizim humanitar sahədə əməkdaşlığımız bu tərəfdaşlığın çox mühüm hissəsidir. Bizim çox böyük ortaq mədəni irsimiz var və humanitar sahədə əməkdaşlığımız hələ Azərbaycan və Rusiya eyni dövlətin hissələri olduğu illərdə formalaşıb. Çox sevindirici haldır ki, Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra bu potensialı nəinki itirməyib, hətta əksinə, çoxaldıb. Bu gün Azərbaycanda böyük rus ədəbiyyatına və mədəniyyətinə tükənməz maraq var. Məktəblərdə rus dilinin öyrənilməsi tam həcmdə saxlanılıb. Bizim ölkəmizdə təhsil prosesinin tamamilə rus dilində olduğu 300 məktəb, hətta 300-dən çox məktəb fəaliyyət göstərir. Paytaxtda Azərbaycan Dövlət Rus Dram Teatrı, Slavyan Universiteti fəaliyyətdədir. Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filiallarının açılması meyli yaranıb – bizdə Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı çox uğurla fəaliyyət göstərir. Bu, bizim uğurlu əməkdaşlığımızın daha bir nümunəsidir.

Həştərxan vilayəti ilə bizim çox səmimi dostluq münasibətlərimiz var. Bu vilayət bizim dostumuz, qonşumuzdur və burada uğurlu əməkdaşlıq nümunələri çoxdur. 2013-cü ildə Müqəddəs Mələksima Knyaz Vladimirə abidə ucaldılması, bu abidənin açılışı bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Bu abidənin yaradılması üzərində Azərbaycanın ən yaxşı rəssamları və memarları çalışıb. Onlar bir il ərzində bizim Rus Pravoslav Kilsəsinə dərin hörmət və ehtiramımızı ifadə edən möhtəşəm monument yaratdılar.

Zati-Müqəddəsləri, səmimiyyətinizə, mehribanlığınıza görə Sizə bir daha ürəkdən təşəkkür etmək, öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Fürsətdən istifadə edib, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sizə səmimi salamını və ölkəmizə yenidən səfər etməyə dəvətini çatdırmaq istəyirəm. Sizə əmin-amanlıq, firavanlıq, möhkəm cansağlığı və xoşbəxtlik arzu edirəm. Çox sağ olun.

* * *

Patriarx Kirill: Çox sağ olun. Bu səmimi və çox düzgün, gərəkli, dəyərli informasiya ilə dolu sözlərinizə görə Sizə təşəkkür edirəm.

Birinci vitse-prezident Mehriban Əliyeva: Sağ olun.

* * *

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Xilaskar İsa Məbədi ilə tanış oldular. Bu məbəd Rus Pravoslav Kilsəsinin baş məbədidir. XIX əsrdə inşa edilmiş məbəd ötən əsrin 90-cı illərində yenidən bərpa olunub. Hazırda məbəddə Rusiya üçün dini baxımdan əhəmiyyətli tədbirlər keçirilir.

Xatırladaq ki, 1988-ci ildə Rusiyada xristianlığın qəbul edilməsinin 1000 illiyi ilə əlaqədar təsis olunan Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə kilsə, dövlət və ictimai həyatın müxtəlif sahələrində böyük xidmətləri olan qadınlar təltif edilirlər.

## “2017-İSLAM HƏMRƏYLİYİ İLİ: DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ”

# Prezident İlham Əliyev: İslam həmrəyliyi bizim üçün şüar deyil, əsas istiqamətlərdən biridir

əvvəli səh. 3 Azərbaycanın zəngin enerji resursları var və bu resurslardan biz səmərəli şəkildə istifadə edirik. Amma ölkələrin rəqabətqabiliyyətliliyi digər parametrlər üzərində hesablanır və bu göstərici bizi dünya miqyasında 35 ən rəqabətqabiliyyətli iqtisadiyyatlar arasına daxil edir.

Məndə və bilirəm ki, cəmiyyətdə ölkəmizin gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var. Bu gün reallaşan nəhəng enerji layihələri, 40 milyard dollar dəyəri olan “Cənub Qaz Dəhlizi” və bizim digər layihələrimiz ölkəmizin uzunmüddətli uğurlu, dayanıqlı inkişafını dəstəkləyəcək.

Azərbaycan bölgədə çox önəmli nəqliyyat mərkəzinə çevrilir. İki ay bundan əvvəl istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu qitələri - Asiyanı Avropa ilə ən qısa yolla birləşdirdi. Hazırda biz “Şimal-Cənub” nəqliyyat dəhlizi üzərində işləyirik. Bu istiqamətdə də çox önəmli nəticələr var. Biz ilin sonuna qədər növbəti nəticələri gözləyirik ki, qısa müddətdə – bəlkə də iki-üç il ərzində bu yolu da biz qonşu ölkələrlə birlikdə istifadəyə verək. Beləliklə, bundan sonra həm Şərqdən Qərbə və əks istiqamətə, həm də Şimaldan Cənuba və əks istiqamətə dəmir yolları Azərbaycan ərazisindən keçəcəkdir. Bu, bizə əlavə iqtisadi mənfəət və əlbəttə ki, siyasi dividendlər gətirəcək. Bu, regional əməkdaşlığa da çox ciddi müsbət təsir göstərəcək. Eyni zamanda, əminəm ki, bu, bizim bugünkü konfransımızın burada yazılan mövzusuna da öz müsbət təsirini göstərəcək. Çünki millətlərarası, dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün hesab edirəm ki, sadəcə olaraq, söz danışmaq kifayət deyil. Konkret layihələr, konkret maraqlar olmalıdır, maraqların uzlaşması, balansı və qarşılıqlı asılılıq olmalıdır. Bizim regionda icra etdiyimiz layihələr bu qarşılıqlı maraqları təmin edir.

Əlbəttə ki, bütün bu nailiyyətləri biz qonşularımızla birlikdə əldə etmişik. Tranzit olmaq istəyən hər bir ölkə gərək öz qonşuları ilə yaxın münasibətlər qursun. Bizdə də bu, belədir. Biz qonşularımızla çox sıx əlaqələr qurmuşuq. Əlbəttə ki, bu, regional təhlükəsizliyə və sabitliyə də öz müsbət təsirini göstərir.

Bir sözlə, əziz dostlar, mən hesab edirəm ki, Azərbaycan müstəqillik dövründə mədəniyyətlərarası dialoqun inkişafında və İslam həmrəyliyinin gücləndirilməsi işində öz rolunu oynayıb. Biz bundan sonra da bu yolla gedəcəyik.

Fürsətdən istifadə edərək, sizə - bütün qonaqlara Bakıya gəldiyiniz üçün bir daha təşəkkürümü bildirirəm və konfransa uğurlar arzulayıram. Sağ olun.

* * *

Daha sonra çıxış edən İran Prezidenti Aparatının rəhbəri Mahmud Vaezi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin, Türkiyənin Diyanət İşləri Başqanı Əli Ərbaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Özbəkistan Respublikası Prezidentinin dövlət müşaviri Rüstəm Kamilov Prezident Şavkat Mirziyoyevin, Fransa Mitropoliti və Ekümenik Patriarxlığın eqzarxı Emmanüel Adamakis Konstantinopol Patriarxı I Varfolomeyin, Novqorod və Starorus Mitropoliti Lev Moskva və bütün Rusiyanın Patriarxı Kirillin, Axaltsixi və Tao-Klarcet Mitropoliti, Katolikos-Patriarx II İliyanın Vikarisi və xüsusi nümayəndəsi Teodor Ümumgürcüstan Katolikos-Patriarxı II İliyanın konfransa müraciətini oxuyub. Həmçinin konfransda ISESCO-nun baş direktoru Əbdüləziz əl-Tuveycri və Müqəddəs Taxt-Tacın adından Vatikanın Dinlərarası Dialoq üzrə Pontifik Şurasının İslam ilə dialoq departamentinin rəhbəri Xaled Akaşe çıxış ediblər. Sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri, MDB Dinlərarası Şuranın həmsədri Şeyxülislam Allahşükür Paşazadənin çıxışı dinlənilib.

Sonda xatirə şəkli çəkdirilib.

**Beynəlxalq konfrans işini plenar iclasla davam etdirib.**




***Plenar iclasın birinci hissəsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının moderatorluğu ilə keçirilib.***

Mübariz Qurbanlı bildirib ki, hazırda dünyada bir çox problemlər mövcuddur. Bu problemlərin fonunda din xadimlərinin, alimlərin belə konfranslarda bir araya gələrək müzakirələr aparmalarına, dialoq qurmalarına ehtiyac var. Ona görə də Bakıda başlayan bu proses bundan sonra da davam etdirilməlidir.

Sonra Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin dini işlər üzrə müşaviri Əli Əbdürrəhman əl-Haşim, Səudiyyə Ərəbistanı Krallığının İslam işləri, dəvət və irşad nazirinin birinci müavini Tofiq Əl-Sudeyri, 77-ci Antakiya Patriarxı Mar Beçara Boutrus Rai, Pakistan Senatının sədr müavini Molana Abdul Qafur Haidari, İRCİCA-nın baş direktoru Halit Eren, Özbəkistan Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Artukbek Yusupov, Əlcəzairin dini işlər və vəqflər naziri Məhəmməd İsa, Suriya Pravoslav Kilsəsinin Antoxiya və Ümumşərq Patriarxı II Mar İqnatus Aphram, Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti Usmonxon Alimov, Pakistanın dini işlər naziri Sərdar Məhəmməd Yusif, Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının icraçı direktoru Malkolm Honlayn, Misir diyarının müftisi Şövqi İbrahim Allam, Şimali Qafqaz Müsəlmanlarının Koordinasiya Mərkəzinin sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikası Ruhani İdarəsinin sədri, müfti İsmayıl Berdiyev, Əfqanıstanın həcc və islam işləri naziri Faiz Osmani, Qüds və Fələstin baş müftisinin müavini İbrahim Xəlil Məhəmməd Avadallah, “Həyatın incəsənəti” beynəlxalq qeyri-hökumət təşkilatının təsisçisi, Şri-Şri Ravi Şankaranın nümayəndəsi Svami Jyothirmayah və İslam Əməkdaşlıq Təşkilatı İdman Federasiyasının baş katibi Mohammad Al-Qarnas çıxış ediblər.

Konfransın əhəmiyyətindən danışan natiqlər qeyd ediblər ki, 2017-ci ilin Azərbaycanda “İslam Həmrəyliyi İli” elan olunması və bu il çərçivəsində belə bir mühüm beynəlxalq konfransın keçirilməsi təqdirəlayiqdir. Beynəlxalq konfrans din, elm xadimlərini bir araya toplayıb və bu, özlüyündə çox böyük bir addımdır. Çünki hazırda dünyada baş verən hadisələr çətin proseslərdən xəbər verir. Bütün İslam aləminin sülh və sabitlik şəraitində yaşaması üçün qarşılıqlı anlaşma və həmrəylik vacibdir. Bu cür beynəlxalq konfranslar sayəsində alimlər birgə əməkdaşlıq edir, dini və milli dözümlülük şəraitində bir-biri ilə anlaşırlar.

Həmçinin vurğulanıb ki, bu gün İslam cəmiyyəti bir çox problemlərlə üzləşib. Müsəlman gənclərin radikallaşdırılması qarşımızda duran ən böyük problemlərdən biridir. Bu məsələləri həll etmək üçün İslam ölkələri arasında birgə hərəkət etmək, birlikdə qərar vermək əhəmiyyətli olardı. Həmrəyliyin gələcəkdə birgəyaşayışın təməlini qoyacağını bildirən natiqlər qeyd ediblər ki, müxtəlif dinlərin sülh şəraitində yaşaması üçün bu, çox mühümdür. Bütün dinlər insanları sülh şəraitində yaşamağa çağırır. Dinindən, irqindən, dilindən asılı olmayaraq hər kəs qarşılıqlı sülh şəraitində yaşamalıdır.

***

**Qısa fasilədən sonra plenar iclas ikinci hissə ilə davam edib.**

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti akademik İsa Həbibbəylinin moderatorluq etdiyi iclasda ABŞ-ın Simon Vizental Mərkəzinin həmsədri Abraham Kuper, “Rusiya-İslam Dünyası Strateji Görüşü Qrupu”nun əlaqələndiricisi, fövqəladə və səlahiyyətli səfir Veniamin Popov, Bolqarıstanın baş müftisi Mustafa Hacı, Çexiya Elmlər Akademiyasının Qlobal Araşdırmalar Mərkəzinin direktoru Marek Hrubek, Sufi və Estetik Araşdırmalar üzrə Beynəlxalq Akademik Mərkəzinin prezidenti Əziz Əl-Kubeyti İdrissi, Türkiyənin Diyanət İşləri Başqanı Əli Ərbaş, Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və başqaları çıxış ediblər.

Beynəlxalq konfransın iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür məktubu ünvanlayıblar.

Sonda konfrans iştirakçıları dövlət başçılarına, beynəlxalq təşkilatlara və dini liderlərə müraciət qəbul ediblər.

Müraciətdə öz əksini tapan əsas məsələlərdən biri konfrans iştirakçılarının son zamanlar Qüds ətrafında cərəyan edən hadisələrlə bağlı, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə ədalətli həllinə dair mövqeyidir.

***

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə tərəfindən beynəlxalq konfransın iştirakçılarının şərəfinə ziyafət verilib.



# ZƏFƏRİN BAYRAQDARI



Tarix boyu tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətindən asılı olmayaraq liderlik fenomeni milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malik olmuşdur.

Elə çətin, ağır sınaqlarla üzləşdiyi vaxtlarda xalqı öz ardınca apara bilən tarixi şəxsiyyətlər yetirmiş Azərbaycanın müstəqil dövlət kimi mövcud olması və bugünkü sürətli inkişafı da liderlik amili ilə birbaşa bağlıdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində Ümummilli Lider Heydər Əliyev öz ağlı, iradəsi, qərar qəbul etmək səriştəsi, insanlara doğru yolu göstərmək bacarığı ilə xalqı vahid amal uğrunda səfərbər edərək ölkəmizi böyük bir bəladan qurtardı.

Prezident İlham Əliyevin də dediyi kimi, Ulu Öndərin böyük çətinliklər hesabına Azərbaycan siyasi palitrasında milli siyasi iradəni təmsil edən avanqard siyasi qüvvəni - Yeni Azərbaycan Partiyasını yaratması ölkə tarixinin ən mühüm hadisələrindən biri idi. Yarandığı gündən əsas məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olan partiyamız geridə qalan 25 ildə öz məqsədlərinə uyğun fəaliyyət göstərmişdir. Məhz uğurlu fəaliyyətin nəticəsidir ki, hazırda 700 mindən çox üzvü olan YAP ölkədə keçirilmiş bütün seçkilərdə - prezident, parlament və bələdiyyə - inamlı qələbələr qazanaraq Ulu Öndərin, onun layiqli davamçısı Prezident İlham Əliyevin siyasi kursunun alternativsiz olduğunu sübut etmişdir.

Bu gün gənc dövlətin bünövrəsinin möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz müasir cəmiyyətdə əsl rəhbər obrazının ən mühüm xüsusiyyətlərini özündə birləşdirən dövlət başçısı İlham Əliyevin liderlik keyfiyyətlərinin, zəkasının, siyasi iradəsinin və uzaqgörənliyinin nəticəsidir.

Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyev 2003-cü il prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına tarixi müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü, bir çox işlərin onun tərəfindən uğurla başa çatdırılacağına inamını ifadə etmişdi: "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ona bəslənilən ümidləri birmənalı şəkildə doğruldan Prezident İlham Əliyev yüksək intellekti, işgüzarlığı, mütərəqqi idarəçilik prinsipləri, müasir dövrün reallıqlarından irəli gələn siyasi mənzərəni qiymətləndirmək bacarığı ilə təkcə ölkəmizdə deyil, eyni zamanda, bütün dünyada mahir dövlət xadimi kimi böyük nüfuz qazanmışdır. Dövlət başçısının həyata keçirdiyi siyasi kursun əsas istiqamətlərinə diqqət yetirmək kifayətdir ki, onun hər addımda dövlətçiliyin inkişafına, milli maraqların müdafiəsinə, xalqın sosial rifahının yaxşılaşmasına, iqtisadiyyatın inkişaf etdirilməsinə nə kimi töhfələr verdiyi görünsün. Birmənalı şəkildə deyə bilərik ki, bu gün özünün liderlik keyfiyyəti ilə dünya azərbaycanlılarını ümumi ideya və məqsəd ətrafında birləşdirən cənab İlham Əliyev dövlətçilik, vətənpərvərlik, ənənələrə bağlılıq kimi mühüm prinsiplərin əsas təminatçısıdır. Onun yürütdüyü balanslı diplomatiya sayəsində ölkəmiz dünyanın güc mərkəzlərinin təkcə Cənubi Qafqaz regionunda deyil, həm də digər bölgələrdə toqquşan maraqlarını optimal şəkildə uzlaşdırmaqla beynəlxalq münasibətlər sistemində müstəqil xarici siyasət həyata keçirən etibarlı strateji tərəfdaşa çevrilmişdir. Məhz cənab İlham Əliyevin düşünülmüş, uzaqgörən siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan heç bir xarici qüvvədən asılı deyil, öz enerji, ərzaq və hərbi təhlükəsizliyini təmin etmək iqtidarındadır. Təsadüfi deyil ki, sahib olduğu təbii resurslardan düzgün istifadə etməklə respublikamız son illər yaşanan ümumdünya maliyyə böhranından nəinki ciddi zərərə məruz qalmayan azsaylı ölkələrdən biri kimi çıxdı, hətta maliyyə imkanlarını genişləndirərək bütün sosial layihələri davam etdirmək yolunu seçdi.

Ulu Öndər Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi altında daha da möhkəmlənməkdə, qüdrətlənməkdədir. Daim xalqın dəstəyini alan ölkə rəhbəri bütün xarici təhdidlərə, təzyiqlərə, siyasi şantajlara baxmayaraq, milli maraq və mənafeyimizi əzmlə qoruyur, daxili və xarici düşmənlərə məkrli planlarının həyata keçməsinə heç vaxt imkan verməyəcəyi mesajını qətiyyətlə verir: "Heç kim bizimlə diktə dili ilə danışa bilməz. Bəziləri bunu istəyir, ancaq alınmır və alınmayacaq. Biz öz sözümüzü təmkinlə, çox soyuqqanlı deyirik və heç kimin qabağında da başıaşağı deyilik, ölkəmizi ləyaqətlə idarə edirik".

Əsl liderlik də məhz budur - daim xalqın yüksək sosial rifahını, ölkənin iqtisadi qüdrətini, müstəqilliyini düşünmək!

**Mübariz QURBANLI,**
Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,
YAP icra katibinin müavini, YAP İdarə heyətinin üzvü
*"Azərbaycan" qəzeti 24.12.2017-ci il*

# BAKIDA "İSLAM HƏMRƏYLİYİ İLİ"NƏ HƏSR OLUNMUŞ KONFRANS KEÇİRİLİB



Dekabrın 18-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə "Prezident İlham Əliyevin siyasəti və İslam həmrəyliyi: anlaşmadan əməkdaşlığa doğru" mövzusunda konfrans keçirilib. Konfransda DQİDK-nın, Bilik Fondunun, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təmsilçiləri, Milli Məclisin deputatları, elm və din xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Konfransı açan DQİDK sədri Mübariz Qurbanlı çıxışında Prezident İlham Əliyev tərəfindən elan olunan "İslam Həmrəyliyi İli"nin önəminə toxunub. M.Qurbanlı vurğulayıb ki, bu gün İslam həmrəyliyi müsəlman dünyası üçün çox mühüm məsələdir. Prezident İlham Əliyevin bu istiqamətdə atdığı addımlar, söylədiyi fikirlər, verdiyi qərarlar bütün İslam dünyasında geniş əks-səda doğurmaqla bərabər, bizə gələcək fəaliyyətimizdə böyük stimul verəcək.

Komitə sədri qeyd edib ki, İslam həmrəyliyi yalnız İslam dünyasına xas olan məsələ deyil. Eyni zamanda, dünyada olan müxtəlif dinlər arasındakı həmrəyliyə yönələn addımdır. Dünya miqyasında dini ayrı-seçkiliyin gücləndiyi bir zamanda yaşayırıq. Bu səbəbdən dinlər və mədəniyyətlər arasında dialoqun bərqərar olması, həmrəyliyin gücləndirilməsi labüddür.

Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev ölkəmizdə mövcud olan dini tolerantlıqdan danışıb və bu faktın beynəlxalq iqtisadi layihələrə də müsbət təsir göstərdiyini bildirib. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyev hələ sovet dövründə nazirlər kabinetində sədr müavini olarkən rəhbərlik etdiyi istiqamətlərdən biri də müsəlman dövlətləri ilə Sovetlər Birliyi arasında əlaqə qurmaq idi. Bu zaman Ulu Öndər həm də müsəlman ölkələrinin öz aralarında müəyyən həmrəyliyə nail olmasına çalışırdı. Hazırda Ümummilli Liderin bu siyasəti Prezident İlham Əliyev tərəfindən davam etdirilir və beləliklə, Azərbaycan İslam dövlətlərinin diqqət mərkəzindədir.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə öz çıxışında islamofobiyaya qarşı mübarizənin gücləndirilməsinin vacibliyini vurğulayaraq bildirib ki, Azərbaycan "İslam Həmrəyliyi İli"nin elan edilməsi ilə İslamın sülh, əmin-amanlıq, qardaşlıq, dostluq dini olduğunu göstərib. İslam həmrəyliyi oyunlarının məhz Azərbaycanda keçirilməsi və bu oyunlarda İslam ölkələrinin əksəriyyətinin iştirakı bir daha sübut edir ki, ölkəmizdə İslama yanaşma düzgün qurulub.

QMİ-nin Aparat rəhbəri Simran Həsənov, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, AMEA-nın Fəlsəfə İnstitutunun direktoru, professor İlham Məmmədzadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Konstantin Pominov da çıxış edərək ölkəmizdə hökm sürən tolerantlıq mühiti, xalqımıza məxsus multikultural dəyərlər, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan münasibətlər haqqında söhbət açıblar.

# "İSLAM HƏMRƏYLİYİ: MÜASİR ÇAĞIRIŞLAR VƏ DİNİ MAARİFLƏNDİRMƏ"





Dekabrın 19-da Yevlax şəhərində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Yevlax Şəhər İcra Hakimiyyətinin (ŞİH) birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfrans keçirilib. Tədbirdə bölgədə fəaliyyət göstərən hüquq-mühafizə orqanlarının rəhbərləri, dini işlər üzrə komissiyanın üzvləri, dini icmaların sədrləri, din xadimləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsinə həsr edilmiş "Şəhadət" sənədli filminə baxıblar.

Yevlax ŞİH başçısının müavini Qənimət Qaraşov çıxış edərək bildirib ki, rayonda dini maarifçilik sahəsində, eləcə də vətəndaşların radikal dini qruplaşmaların, qeyri-ənənəvi təriqətlərin təsirinə düşməməsi, mövhumata meyillənməməsi üçün mütəmadi iş aparılır. Rayonda bu gün dini durum sabitdir.

Daha sonra çıxış edən DQİDK-nın sədri Mübariz Qurbanlı Azərbaycanda mövcud olan dini tolerantlıq, multikulturalizm ənənələrindən, İslam dünyasında həmrəyliyin təmin olunmasının əhəmiyyətindən, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqindən bəhs edib. O bildirib ki, müasir dünyada din amilindən başqa məqsədlər üçün də istifadə olunur. İslam dünyasını çəhalətdə saxlamaq, onu inkişafdan geri qoymaq və onun üzərində hegemonluq etmək məqsədilə riyakar iş aparılır. Bunun kökündə kənar qüvvələr tərəfindən İslam dünyasını daxildən parçalamaq, məzhəb, təriqət qarşıdurması yaradaraq onları zəiflətmək dayanır. Bu isə müsəlman ölkələrində ağır nəticələrə, qarşıdurmalara gətirib çıxarır.

Mübariz Qurbanlı ölkəmizdə milli-mənəvi dəyərlərə göstərilən yüksək diqqətdən danışarkən deyib: "Dövlət müstəqilliyimiz və dinimiz xüsusi əhəmiyyət daşıyan dəyərlərimizdəndir. Ümummilli Lider Heydər Əliyev qeyd edirdi ki, bizim mənəvi dəyərlərimiz içərisində islami dəyərlərimiz xüsusi yer tutur. Ulu Öndər dövlət müstəqilliyini bizim tarixi nailiyyətimiz, nemətimiz adlandırırdı. Prezident İlham Əliyev də milli-mənəvi dəyərlərimizə xüsusi diqqətlə yanaşır. Bu ilin oktyabr ayında dövlətimizin başçısının Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Bu fond vasitəsilə məscidlərin maddi təminatı həyata keçiriləcək. Həmçinin maarifləndirici filmlər çəkiləcək, kitablar nəşr olunacaq, görüşlər, tədbirlər təşkil ediləcək".

Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi Əli Məmmədov ölkəmizdə dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətlərindən danışıb.

Konfransın ikinci hissəsi "Dini radikalizmlə mübarizə və gənclərin maarifləndirilməsi" mövzusuna həsr olunub.

Yevlax ŞİH başçısının müavini Elnarə Məmmədova çıxış edərək bildirib ki, dünyada islamofobiyanın baş alıb getdiyi bir dövrdə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması zamanın çağırışlarına cavab verən mühüm addımdır.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov isə öz çıxışında dini radikalizmə qarşı mübarizədə ardıcıl, sistemli və intensiv maarifləndirmənin mühüm rol oynadığını vurğulayıb. Sədr müavini qeyd edib ki, bu sahədə yad dini-ideoloji təsirlərin qarşısının alınmasında ənənəvi İslam dəyərlərinin təbliğinin böyük əhəmiyyəti vardır.

Daha sonra DQİDK-nın dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov təqdimatla çıxış edib.

Konfransda "Azərbaycanlı, yoxsa müsəlman: hansı bizim üçün daha önəmlidir?", "Dindar olub müasir olmaq mümkündürmü?", "Dindar gənclik dünyəvi gənclikdən nə ilə fərqlənməlidir?" mövzuları ətrafında müzakirələr aparılıb, tədbir iştirakçılarının, gənclərin fikirləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb.

# DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ YEVLAXDA VƏTƏNDAŞLARI QƏBUL EDİB

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların müraciət və təkliflərinin, ərizə və şikayətlərinin həlli üçün operativ tədbirlər görürlər.

Dekabrın 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Yevlax şəhərində Mingəçevir, Ağdaş, Yevlax və Bərdədən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Yevlax Şəhər İcra Hakimiyyəti başçısının müavini Qənimət Qaraşov Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül-çiçək qoyublar.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, Quran kurslarının təşkil edilməsi və digər məsələlərlə bağlı müraciətlər ünvanlayıblar.

Vətəndaşlar Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib. Bir çox müraciətlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan məsələlər qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib.

Yaradılan şəraitdən razılıqlarını bildirən vətəndaşlar bölgələrdə bu cür qəbulların təşkilinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.



# DÖVLƏT AZTƏMİNATLI AİLƏLƏRİN DƏFN XƏRCLƏRİNİN ÖDƏNİLMƏSİNƏ YARDIM EDƏCƏK

***"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fərmanı ilə cari il oktyabrın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılan Mənəvi Dəyərlərin Təbliği Fondunun fəaliyyəti sosial sferanın müxtəlif sahələrini də əhatə edəcək".***

Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib.

M.Qurbanlı deyib ki, fond dini radikalizmdən, alkoqolizmdən, narkomaniyadan əziyyət çəkən şəxslərin cəmiyyətə yenidən inteqrasiyasına, təhsil alanların sosial müdafiəsinin gücləndirilməsinə, istedadlı şəxslərin təhsilini davam etməsinə, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına kömək edəcək: "Habelə aztəminatlı ailələrə dəfn xərclərinin ödənilməsi, Qarabağ müharibəsi və 20 Yanvar şəhidlərinin ailələrinə, müharibə əlillərinə, xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə, valideynlərini itirməsinə və ya valideyn himayəsindən məhrum olmasına görə sosial xidmət müəssisələrində yaşamış şəxslərin həmin müəssisələri tərk etdikdən sonra yaşayış xərclərinin ödənilməsi üçün maddi yardım göstərmək də fondun vəzifələrinə daxildir. Xüsusən yeniyetmə və gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasının aktuallıq qazandığı günümüzdə Mənəvi Dəyərlərin Təbliği Fondunun bu sahədə genişmiqyaslı fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Çünki danılmaz faktdır ki, milli-mənəvi dəyərlərimizə varislik prizmasından yanaşma həm dövlətçilik, həm də mənəvi irsimiz baxımından zəruridir. Gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasında təhsilin xüsusi yeri vardır ki, fond təhsillə bağlı qarşısına geniş məqsədlər qoyub".

# NAXÇIVANDA “ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV DİNİ HƏMRƏYLİYİN YARADICISIDIR” MÖVZUSUNDA KONFRANS KEÇİRİLİB



Dekabrın 6-da “İslam Həmrəyliyi İli” çərçivəsində Naxçıvanda “Ümummilli Lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır” mövzusunda konfrans keçirilib.

Əvvəlcə konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, daha sonra Heydər Əliyev Muzeyinə gələrək dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

“Araz” Dövlət Qəbul Evində keçirilən konfrans müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlanıb.

Naxçıvan Muxtar Respublikası (NMR) Ali Məclisinin sədri Vasif Talıbov konfrans iştirakçılarını salamlayıb, təşkilatçılara təşəkkürünü bildirərək deyib: “Dini dözümlülük və həmrəylik, milli-mənəvi dəyərlərə qayıdış yaşadığımız dövrün əsas məsələlərindəndir. Zaman keçdikcə daha aydın görünür ki, mənəvi dəyərləri bərpa etmədən, dini həmrəylik yaratmadan sabitliyə nail olmaq mümkün deyil. Dini həmrəyliyi yüksək mədəniyyətin göstəricisi kimi dəyərləndirən Ümummilli Liderimiz Azərbaycana rəhbərliyinin hər iki dövründə mənəvi dəyərləri diqqətdə saxlamışdır. Şübhəsiz ki, mənəvi dəyərlər o halda fayda verə bilər ki, insanlarda bu dəyərlərə şüurlu münasibət formalaşsın”.

Ali Məclisin sədri qeyd edib ki, bu gün ölkəmizdə müsəlmanların, xristianların və yəhudilərin bərpa edilərək yenidən istifadəyə verilən ibadət ocaqlarında azad şəkildə ibadət etmələri, dini və ya məzhəb ayrı-seçkiliyinin aradan qaldırılması Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında mühüm tarixi missiyasıdır və bu missiya hazırda ölkəmizdə uğurla davam etdirilir.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə konfransda çıxış edərək deyib ki, Azərbaycanda multikulturalizm, tolerantlıq və dini həmrəylik sahəsində qazanılan nailiyyətlər Ulu Öndərin ideyalarının bəhrəsidir. Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən də dövlət-din siyasəti uğurla davam etdirilir, dini həmrəylik möhkəmləndirilir. Dövlət başçısının Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda “İslam Həmrəyliyi İli” elan olunması da bu tədbirlərin davamıdır.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadə isə öz çıxışında bildirib ki, Naxçıvan tarixən dini-mənəvi dəyərlərin qorunub saxlanıldığı yer olub. Qədim elm və mədəniyyət mərkəzi Naxçıvanda dini dəyərlərə hörmətlə yanaşılır, dini-mədəni abidələr bərpa olunur. Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı olması ilə əlaqədar həyata keçirilən tədbirlər, eləcə də bugünkü konfrans bu sahədə görülən işlərin əhatə dairəsini daha da genişləndirir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı diqqətə çatdırıb ki, müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyev ölkəmizdə dövlət-din münasibətlərinin əsasını qoymaqla bu sahədə sağlam ideologiya yaradıb. Dahi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, qanunvericilik bazası formalaşdırılıb. Bu gün Azərbaycan ölkə başçısının rəhbərliyi ilə beynəlxalq aləmdə multikulturalizmə, dinlərarası dialoqa və həmrəyliyə öz töhfəsini verir. 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan olunması da bu baxımdan mühüm əhəmiyyət daşıyır. Bugünkü konfransın İslam Mədəniyyətinin Paytaxtı Naxçıvanda keçirilməsi və müzakirələrin aparılması isə ölkəmizdə bu sahədə görülən işlərin davamı kimi qiymətləndirilməlidir.

Konfransda həmçinin Milli Məclisin deputatı, Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, NMR Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev, Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmov, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, QMİ Elmi-Dini Şurasının sədri Vasim Məmmədəliyev, QMİ sədrinin müavini Sabir Həsənli, o cümlədən Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete, Bakı şəhər Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev də çıxış edərək mövzuya dair fikirlərini səsləndiriblər. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyev hələ Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi illərdə Azərbaycan dövlətçiliyinin əsasını müəyyənləşdirib. Dahi şəxsiyyət Azərbaycanı düz yola çıxardaraq bugünkü inkişafının - tərəqqi yolunun əsasını qoyub. Heydər Əliyev yolu sülh, dostluq, həmrəylik yoludur. Bu gün ölkə başçısının bu yolu uğurla davam və inkişaf etdirməsinin nəticəsidir ki, Azərbaycan müharibə şəraitində yaşamasına baxmayaraq dünyada sülhə, sabitliyə və dini həmrəyliyə öz töhfəsini verir.

Sonda konfrans iştirakçıları xatirə şəkli çəkdiriblər.

# DÖVLƏT KOMİTƏSİ DİNİ İCMALARIN LAYİHƏLƏRİNİ MALİYYƏLƏŞDİRİB



Dekabrın 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) layihələri maliyyələşdirilmiş dini icma sədrlərinin iştirakı ilə tədbir keçirilib. Tədbirdə Dövlət Komitəsinin sədri, Aparat rəhbəri, şöbə müdirləri və dini icmaların rəhbərləri iştirak ediblər.

Prezident cənab İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncamın əhəmiyyətinə toxunan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı həmin sənədin milli-mənəvi dəyərlərimizə dövlət qayğısının bariz nümunəsi olduğunu bildirib. Ayrılan maliyyə vəsaitinin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinin daha da gücləndirilməsinə sərf edildiyini diqqətə çatdırıb.

Komitə sədri qeyd edib ki, icmalar tərəfindən layihələrin reallaşması, dini maarifləndirmə və milli-mənəvi dəyərlərin düzgün təbliği, xüsusilə gənclərə dinin olduğu kimi izah edilməsi radikalizmlə və xurafatla mübarizədə öz müsbət təsirini göstərir.

Eyni zamanda, dini icma sədrlərinə layihələrin icrası zamanı İslam dini və mədəniyyətinin təbliğinə, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına xüsusi diqqət yetirmələri, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərmələri tövsiyə olunub.

Qeyd edək ki, dekabrın 1-də Dövlət Komitəsi tərəfindən 8 dini icmaya maliyyə vəsaiti ayrılmışdı. İndiyədək İslam dini icmaları tərəfindən təqdim edilən 286 layihə maliyyələşdirilmişdir.

# Cocuq Mərcanlı məscidi dini icması dövlət qeydiyyatına alınıb



Dekabrın 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş Cocuq Mərcanlı məscidi dini icmasına şəhadətnamə təqdim edilib.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı erməni işğalçılarına qarşı cəbhənin ön səngəri olan Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlər barədə danışaraq, Prezident İlham Əliyevin tapşırığına əsasən kənddə Şuşa məscidinin bənzəri olan məscidin inşasının ictimai, siyasi, mənəvi və ideoloji baxımdan böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Dövlət Komitəsinin sədri ölkə başçısının ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına, tarixi-mədəni və dini ibadətgahların yenidən qurulmasına, inşasına böyük əhəmiyyət verdiyini vurğulayaraq, Cocuq Mərcanlı məscidinin tikintisinin “İslam Həmrəyliyi İli”nə dəyərli töhfə olduğunu xüsusi qeyd edib.

Cocuq Mərcanlı məscidi dini icmasının sədri Elman Piriyev Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan dini ibadətgahda dindarlar üçün hər cür şəraitin mövcud olduğunu bildirib. İcma sədri dini sahəyə göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə bütün Cocuq Mərcanlı sakinləri adından bir daha təşəkkür edib.

Sonda Cocuq Mərcanlı məscidi dini icmasının sədrinə Dövlət Komitəsinin nəşri olan dini maarifləndirici kitablar hədiyyə edilib.

# DÖVLƏT KOMİTƏSİNDƏ

## GÖRÜŞLƏR

Dekabrın 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Avropa Şurasının Bakı Ofisinin rəhbəri Zoltan Hernyesi qəbul edib.

* * *

Dekabrın 13-də DQİDK sədrinin birinci müavini Səyyad Salahlı Böyük Britaniyanın ölkəmizdəki səfirinin köməkçisi Stefen MakKormik ilə görüşüb.

* * *

Dekabrın 14-də DQİDK sədri Mübariz Qurbanlı Yeddinci Günün Adventistləri Kilsəsinin Ümumdünya Cəmiyyətinin ictimai əlaqələr və din azadlığı şöbəsinin rəhbəri Qanun Diop və onu müşayiət edən nümayəndə heyəti ilə görüşüb.

* * *

Dekabrın 15-də Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İsveçrənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Filip Stalderi qəbul edib.

* * *

Dekabrın 22-də DQİDK sədri ABŞ-dakı Simon Vizental Mərkəzinin rəhbərinin müavini ravvin Abraham Kuper ilə görüşüb.

## MÜŞAVİRƏ



Dekabrın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) müşavirə keçirilib. Müşavirədə DQİDK-nın sədri, sədr müavinləri, Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Tədbirdə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin önəminə toxunan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bu tarixi addımla böyük bir missiyanı üzərinə götürən ölkəmizin İslam həmrəyliyinin bərqərar olmasında özünəməxsus mövqeyinin möhkəmləndirilməsinə, həmrəyliyin formalaşdırılmasına yönələn fəaliyyət istiqamətləri barədə danışıb. Bu il çərçivəsində Prezident İlham Əliyevin Sərəncamı ilə hazırlanan Tədbirlər Planına əsasən Dövlət Komitəsinin Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə ölkə daxilində və xaricdə bir sıra önəmli tədbirlər keçirdiyini bildirib. Tədbirlərin İslam dini və mədəniyyətinin, eləcə də həmrəyliyin mahiyyətinin çatdırılması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Daha sonra gündəliyə uyğun olaraq, DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin müdiri Anar Kazımovun, Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Şirin Cəfərovun, Tovuz bölgəsi üzrə şöbəsinin müdiri Rasim Tağıyevin, Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Asif Əliyevin və Masallı bölgəsi üzrə şöbəsinin müdiri Miryəhya Bədirovun məruzəsi dinlənilib. Müşavirə müzakirələrlə davam edib və müvafiq tapşırıqlar verilib.

# BAKIDA "SÖZ AZADLIĞI VƏ DİNİ İCMALAR" MÖVZUSUNDA KONFRANS TƏŞKİL EDİLİB



***Dekabrın 27-də Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Azərbaycan Mətbuat Şurası (MŞ) və Bakı şəhər "Məşədi Dadaş" məscidi dini icması tərəfindən "Söz azadlığı və dini icmalar" mövzusunda konfrans keçirilib.***

Tədbirdə DQİDK, MŞ, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) rəhbərliyi, Bakı şəhər "Məşədi Dadaş" məscidi dini icmasının üzvləri, eləcə də kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı konfransın mətbuatla ölkəmizdə fəaliyyət göstərən dini icmalar arasındakı əlaqələrin müzakirə edilməsi, təkmilləşdirilməsi üçün təşkil edildiyini bildirib. Azərbaycanda nümunəvi dövlət-din modelinin mövcud olduğunu qeyd edən Dövlət Komitəsinin sədri bu nümunənin təbliğ və təşviqinə ehtiyac olduğunu vurğulayıb. M.Qurbanlı qeyd edib ki, Azərbaycanda söz və mətbuat azadlığı yüksək səviyyədədir. Din mövzusu həssas mövzudur və bu mövzuya müraciət edən jurnalist din haqqında, İslam dünyasında baş verən hadisələr barəsində bilgiyə malik olmalıdır. O, bu məqsədlə cari il ərzində QMİ-nin təşəbbüsü ilə MŞ və DQİDK tərəfindən jurnalistlər üçün müxtəlif seminarların keçirildiyini diqqətə çatdırıb, eyni zamanda bu seminarların 2018-ci ildə də davam etdirilməsinin planlaşdırıldığını bildirib.

Çıxışında "İslam Həmrəyliyi İli" çərçivəsində Bakıda keçirilən "2017 - İslam həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusundakı beynəlxalq konfransda Əlaqələndirmə üzrə Koordinasiya Şurasının yaradılmasının qərara alındığını qeyd edən Mübariz Qurbanlı Şurada QMİ və DQİDK, o cümlədən dünyanın müxtəlif ölkələrindən din xadimlərinin təmsil olunacağını vurğulayıb. Bu çərçivədə "Mədəniyyətlər və dinlərarası dialoq" adlı bir prosesinin əsasının qoyulacağını diqqətə çatdırıb.

Azərbaycan MŞ-in sədri, Milli Məclisin deputatı Əflatun Amaşov konfransın önəmindən danışıb. Qeyd edib ki, Azərbaycan İslam Əməkdaşlığı Təşkilatının (İƏT) fəal üzvlərindən biridir və yaxın gələcəkdə İƏT Xarici İşlər Nazirliyinin toplantısında İƏT üzv ölkələrinin jurnalistlərinin Birliyi öz təsdiqini tapmalıdır. İnanırıq ki, mətbuat nümayəndələrimiz bu prosesə öz töhfəsini verəcək.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxışında bildirib ki, hər insanın sosial keyfiyyətinin formalaşmasında dinin mühüm rolu var. İnsanın bütün fəaliyyət sferasında özü ilə ən səmimi olduğu sahə dindir. Dini şüurun formalaşmasında dini institutların böyük rolu olduğunu deyən Hikmət Babaoğlu dini mədəniyyətimizin milli mədəniyyətimizin tərkib hissəsi olduğunu qeyd edib.

QMİ sədrinin müavini Qəmərxanım Cavadlı isə bildirib ki, QMİ müstəqillik illərində Ümummilli Lider Heydər Əliyevin dəstəyi və qayğısı sayəsində təkcə Azərbaycanda deyil, bütün Qafqaz regionunda aparıcı müsəlman dini quruma çevrilmişdir. Bizim əldə etdiyimiz ən böyük nailiyyət din-dövlət münasibətlərinin davamlı inkişafıdır.

Sonra DQİDK-nın İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Yaqut Əliyevanın "Din və media" mövzusunda təqdimatı dinlənilib. O, kütləvi informasiya azadlığının, vətəndaşların məlumat almaq və yaymaq hüququnun hər bir demokratik dövlətin və cəmiyyətin idarəetmədə baza prinsiplərini təşkil etdiyini bildirib. Qeyd edib ki, informasiya təhlükəsizliyi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin tərkib hissələrindən biri kimi cəmiyyətin və dövlətin həyatının müxtəlif sahələrində milli maraqların müdafiəsini ön plana çəkir.

Ardınca kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında "İslam həmrəyliyi və media" mövzusunda elan edilən məqalə müsabiqəsinin mükafatlandırma mərasimi keçirilib.



Münsiflər heyəti adından QMİ-nin Aparat rəhbəri Simnar Həsənov, "Məşədi Dadaş" məscidinin imamı Hacı Şahin Həsənli çıxış edərək müsabiqəyə Azərbaycanın İslam həmrəyliyinə töhfəsi, İslam həmrəyliyini zəruri edən səbəblər, o cümlədən Azərbaycan dövlətinin İslam dünyasında vəhdətin, həmrəyliyin gücləndirilməsi istiqamətində gördüyü işlər barədə məqalələr göndərildiyini bildiriblər.

Sonda yazı müsabiqəsində qalib gələn jurnalistlərə mükafatlar təqdim edilib.

# "İSLAM HƏMRƏYLİYİNİN TƏBLİĞİNDƏ DİNİ İCMALARIN FƏALİYYƏTİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ"

Dekabrın 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Mingəçevir şəhər Heydər Əliyev mərkəzində "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə şəhərin təhsil müəssisələrinin müəllimləri, Yeni Azərbaycan Partiyasının Mingəçevir şəhər Gənclər Təşkilatının üzvləri, şəhər Gənclər və İdman İdarəsi, eyni zamanda DQİDK-nın yerli strukturunun rəsmi şəxsləri, din xadimləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Mingəçevir ŞİH başçısının birinci müavini İlham İsmayılov tədbiri giriş sözü ilə açaraq maarifləndirici tədbirlərin əhəmiyyətindən bəhs edib. Hər bir vətəndaşın, o cümlədən din xadimləri və dini icmaların bu istiqamətdə fəallığının artırılmasının vacibliyini vurğulayıb.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında Prezident İlham Əliyev tərəfindən ölkəmizdə elan olunan "İslam Həmrəyliyi İli"nin əhəmiyyətindən danışıb. Bu il çərçivəsində ölkəmizdə və ölkəmizdən kənarda həyata keçirilmiş təbliğat xarakterli tədbirlərin önəminə toxunan sədrin birinci müavini Dövlət Komitəsinin bu istiqamətdəki fəaliyyəti barədə də məlumat verib.

Ölkəmizdəki sabit dini durumdan bəhs edən Səyyad Salahlı bildirib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və cənab Prezident İlham Əliyevin davam etdirdiyi uğurlu siyasət nəticəsində hazırda respublikada dövlət-din münasibətləri özünün yüksəliş dövrünü yaşayır. Dövlət-din münasibətlərinin tənzimlənməsində dini icmaların üzərinə düşən vəzifələrdən danışan Dövlət Komitəsi sədrinin birinci müavini dini icmalar və din xadimlərinin milli-mənəvi dəyərlərimizin təbliğatında əhəmiyyətli rol oynadıqlarını diqqətə çatdırıb. Bu istiqamətdə fəaliyyətin artırılmasının vacibliyini vurğulayıb.

Seminar-treninqin sonunda mövzu ətrafında fikir mübadiləsi aparılıb.

## SƏYYAD SALAHLININ "AÇILAN SABAHLARA ŞÜKÜR" KİTABI NƏŞR EDİLİB

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlının (Aran) "Açılan sabahlara şükür" adlı kitabı çapdan çıxıb. Dövlət Komitəsi tərəfindən nəşr edilmiş, geniş oxucu auditoriyası üçün nəzərdə tutulan kitabda yazıçı-publisistin 2013-2017-ci illərdə qələmə aldığı milli-mənəvi dəyərlərimiz mövzusundakı məqalələri və mətbuata müsahibələri toplanıb. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi din siyasətinin uğurlarından geniş söhbət açılan nəşrdə, həmçinin müəllifin Dövlət Komitəsi sədrinin birinci müavini kimi iştirak etdiyi beynəlxalq tədbirlərdəki məruzələri, çıxışları da yer alıb.




## DÖVLƏT QEYDİYYATINA ALINAN DİNİ İCMALARIN SAYI 793-Ə ÇATIB

Dekabrın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) dövlət qeydiyyatına alınmış 9 dini icmaya şəhadətnamələr təqdim edilib. Tədbirdə Prezident İlham Əliyev tərəfindən ölkəmizdə elan edilən "İslam Həmrəyliyi İli"nin əhəmiyyətinə toxunan Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov bu müdrik, düşünülmüş addımın həm daxili, həm də beynəlxalq-ümumbəşəri çağırışları ehtiva etdiyini bildirib. S.Heydərov tarixən İslam dünyasının bir parçasına çevrilmiş ölkəmizin bununla öz milli-mənəvi dəyərlərinə sadiqliyini bir daha nümayiş etdirdiyini vurğulayıb.



Dini icma sədrlərinə tövsiyələrini də verən sədr müavini onları cəmiyyətin dini baxımdan düzgün maarifləndirilməsi, milli-mənəvi dəyərlərimizin təbliğ və təşviq edilməsində, eyni zamanda tolerant və multikultural mühitin daha da inkişaf etdirilməsində fəal rol oynamağa, yeni təşəbbüslərlə çıxış etməyə çağırıb.

Sonda icma sədrlərinə qeydiyyat şəhadətnamələri təqdim edilib.

# HƏRBİ HİSSƏLƏRDƏ "ŞƏHADƏT" SƏNƏDLİ FİLMİ NÜMAYİŞ ETDİRİLİB

Dekabrın 8-də Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sifarişi ilə çəkilmiş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

Tədbirdə DQİDK-nın sədr müavini Səyavuş Heydərov, Yevlax bölgəsi üzrə şöbəsinin müdiri Natiq Əfəndiyev, şöbənin əməkdaşı Rahib İbrahimov və hərbi hissə komandirinin Tərbiyəvi İşlər üzrə müavini, polkovnik-leytenant Babək Səmidli başda olmaqla əsgər və zabit heyəti iştirak ediblər.

* * *

Dekabrın 9-da isə "Şəhadət" sənədli filmi DQİDK sədrinin müavini Səyavuş Heydərov, DQİDK-nın Tovuz bölgəsi üzrə şöbəsinin müdiri Rasim Tağıyev, N saylı hərbi birlik komandirinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Rasim Manafov, hərbi qulluqçular və şəxsi heyətin iştirakı ilə Şəmkir şəhərində yerləşən "N" saylı hərbi hissədə nümayiş etdirilib.

"Şəhadət" filmi nümayiş etdirildikdən sonra isə tədbir iştirakçıları film barədə öz təəssüratlarını bölüşüblər. Sənədli filmin əhəmiyyətini yüksək qiymətləndirən çıxışçılar gəncləri radikal dini cərəyanların təsiri altına düşməkdən qorumağın, dini radikalizmin fəsadları, eyni zamanda, gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunmasının vacibliyini qeyd ediblər.

DQİDK sədrinin müavini Səyavuş Heydərov "Şəhadət" filminin süjet xəttində göstərilən, Vətənimiz uğrunda canından keçmiş şəhidlərimizdən və qeyri-qanuni hərbi birləşmələrin tərkibində vuruşaraq öldürülən insanlardan bəhs edib. Sədr müavini həmçinin DQİDK-nın sifarişi ilə çəkilmiş "Fitnə", "Vandalizm" filmləri barədə də məlumat verərək bu filmlərin dini maarifləndirmə sahəsindəki uğurlu nəticələri barədə danışıb. O, Azərbaycan xalqının əsrlərboyu sahib olduğu milli-mənəvi dəyərlərin qorunub saxlanılması, bu sahədəki mövcud potensialın inkişaf etdirilməsi, vicdan azadlığının təmin olunması, ölkədə dövlət-din münasibətlərinin demokratik əsaslar, ümumbəşəri dəyərlər və dünyəvilik zəminində formalaşdırılması istiqamətində görülən tədbirləri də xüsusi qeyd edib. Daha sonra radikalizmin formalaşması, yayılma metodları, əhatə dairəsi barədə məlumat verən S.Heydərov bu zərərli tendensiyaya qarşı mübarizə çərçivəsində milli-mənəvi dəyərlərimizin təbliğatının genişləndirilməsi istiqamətində həyata keçirilən maarifləndirmə tədbirlərinin ən effektiv vasitə olduğunu vurğulayıb.



Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "RADİKALİZM VƏ EKSTREMİZMİN MAHİYYƏTİ, YARANMA SƏBƏBLƏRİ VƏ ONLARA QARŞI MÜBARİZƏNİN HÜQUQİ ƏSASLARI"

Dekabrın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Nizami Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" mövzusunda regional seminar-müşavirə keçirilib.

Seminar-müşavirədə DQİDK-nın, Nizami RİH-in, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin Nizami, Xətai, Binəqədi rayonlarının yerli strukturlarının rəhbərləri, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdən əvvəl DQİDK-nın sifarişi ilə çəkilmiş, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsinə həsr olunmuş "Şəhadət" sənədli filmi nümayiş etdirilib. Daha sonra Ümummilli Lider Heydər Əliyev və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Nizami RİH-in başçısı Arif Qasımov çıxışında 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasının əhəmiyyətindən və bu il çərçivəsində keçirilən tədbirlərin gənclərin maarifləndirilməsi baxımından



önəmindən danışıb.

DQİDK sədrinin müavini Səyavuş Heydərov dünyada, xüsusilə Yaxın Şərqdə dini və etnik zəmində münaqişələrin cərəyan etdiyini və bu münaqişələrin bəzi ölkələr tərəfindən öz geosiyasi və iqtisadi mənafelərinin təmin edilməsi üçün məqsədli şəkildə yaradıldığını bildirib. O qeyd edib ki, İslam dininin yayılmasından narahat olan bu qüvvələr onu siyasiləşdirməyə, terrorla eyniləşdirməyə cəhd edirlər. Natiq diqqətə çatdırıb ki, bəzi xarici mərkəzlər tərəfindən yad dini ideologiyaların ölkəmizə ixracına cəhdlər var. Bununla əlaqədar radikalizm və ekstremizmə qarşı mübarizədə bütün vətəndaşlar fəal olmalıdırlar.

Ölkəmizdə bu ilin "İslam Həmrəyliyi İli" elan olunduğunu deyən S.Heydərov qeyd edib ki, İraq və Suriyada terrorçu qruplara qarşı vahid mübarizədə İslam həmrəyliyinin rolu böyükdür. Eyni zamanda, ölkəmizdəki sabitlik, sülh, həmrəylik, o cümlədən qlobal təhlükəsizliyin təmin edilməsi istiqamətindəki dövlətin fəaliyyəti Avropa dövlətləri tərəfindən yüksək qiymətləndirilir.

Baş Prokurorluğun idarə rəisinin müavini Rauf Məmmədov dini radikalizm və ekstremizmə qarşı mübarizənin hüquqi əsasları haqqında danışıb. Daxili İşlər Nazirliyinin məsul əməkdaşı Oqtay Tağıyev isə dini radikalizm və ekstremizmə qarşı mübarizədə daxili işlər orqanlarının fəaliyyətindən bəhs edib. Nazirliyin müvafiq sahədə həyata keçirdiyi profilaktik və inzibati tədbirlərdən danışan natiq dini radikal və ekstremist qrupların fəaliyyətinin ictimai təhlükəsizliyə təhdid olduğunu və ona qarşı müştərək mübarizənin vacibliyini vurğulayıb.

Seminar-müşavirə müzakirələrlə davam etdirilib.

# SƏYAVUŞ HEYDƏROV: İSLAM DİNİ İNSANLARI SÜLHƏ, ƏMİN-AMANLIĞA ÇAĞIRIR

Dekabrın 26-da "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) Təlim-Tədris Mərkəzində növbgti dini maarifləndirmə tədbiri keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov, "Bakı Metropoliteni" QSC sədrinin müşaviri Mehdi Məmmədov, Bakı Şəhər Baş Polis İdarəsinin Bakı Metropolitenində Polis Şöbəsinin rəhbərliyi və əməkdaşları, "Bakı Metropoliteni"nin məsul işçiləri iştirak ediblər.

Tədbirdə əvvəlcə DQİDK-nın sifarişi ilə hazırlanan "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

Daha sonra çıxış edən "Bakı Metropoliteni" QSC sədrinin müşaviri M.Məmmədov mövzunun əhəmiyyətindən danışıb. Bildirib ki, DQİDK ilə "Bakı Metropoliteni" mütəmadi olaraq birgə bu cür maarifləndirmə tədbirləri həyata keçirir.

Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov çıxışında ölkəmizdə dini radikalizm və dini ekstremizmlə mübarizə tədbirlərindən bəhs edib. Natiq bu istiqamətdə DQİDK-nın sifarişi ilə hazırlanan "Fitnə", "Şəhadət" sənədli filmlərinin böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. S.Heydərovun sözlərinə görə, bəzi xarici qüvvələr İslam dinindən siyasi və iqtisadi maraqlar naminə alət kimi istifadə edirlər ki, Yaxın Şərqdə baş verən proseslər buna bariz nümunədir. Vurğulayıb ki, əslində dinimiz sülh dinidir və insanları sülhə, əmin-amanlığa çağırır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda ictimai-siyasi sabitliyin mövcud olduğunu diqqətə çatdıran Dövlət Komitəsinin sədr müavini qeyd edib ki, ölkə başçısının təşəbbüsü ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması, bununla bağlı Bakıda "2017 - İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın keçirilməsi respublikamızın müsəlman aləmində, bütövlükdə dünyadakı nüfuzundan irəli gəlir.

S.Heydərov dini radikalizmlə mübarizədə hər kəsi, xüsusilə mühafizə keşikçilərini diqqətli olmağa çağırıb, bununla bağlı tövsiyələrini verib.

# "DİNİ MAARİFÇİLİK İŞİNİN TƏŞKİLİ: TƏCRÜBƏ VƏ YENİ YANAŞMA"

Dekabrın 13-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Şabran Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "Dini maarifçilik işinin təşkili: təcrübə və yeni yanaşma" adlı konfrans keçirilib.

Şabran şəhəri Heydər Əliyev Mərkəzində baş tutan konfransda rayonda fəaliyyət göstərən təhsil müəssisələrinin direktor müavinləri, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Şabran RİH başçısının birinci müavini Mehdi Balabəyov dini sahədə maarifləndirmə işinin təhsil müəssisələrində düzgün səviyyədə təşkil olunmasının önəmindən danışıb.

DQİDK-nın Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov öz təqdimatında dünyada mövcud olan dinləri inkişaf tempinə görə müqayisə edib. O, dini zəmində baş verən münaqişələrin həlli yolunun dini həmrəylikdən keçdiyini bildirib. Bu məqsədlə də ölkəmizin hazırda dinlərarası dialoqun inkişafında mühüm addımlar atdığını diqqətə çatdırıb.



Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov isə dinə yanaşmanın müxtəlif formaları barədə danışıb. O, cəmiyyətdə parçalanma yaratmaq istəyən qüvvələrin apardıqları təbliğatların əsas mahiyyətini geniş şəkildə izah edib. İnsanların inancına hörmət hissinin qorunmasının və təbliğ olunmasının vacib olduğunu dilə gətirib. Yeniyetmə və gənclər arasında dini maarifləndirmə prosesində bu yanaşmaya xüsusi diqqət yetirməli olduğumuzu bildirib.

* * *

Analoji tədbir dekabrın 14-də DQİDK və Xaçmaz RİH-in birgə təşkilatçılığı ilə baş tutub. Tədbirdə ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, "Həyat bilgisi" fənnini tədris edən müəllimlər, şagirdlər, eləcə də rayonun fəal gəncləri iştirak ediblər.

Konfransda çıxış edən Xaçmaz RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri, icra başçısının müavini İlhamə Nəzərova rayondakı mövcud dini durum barədə məlumat verib, "İslam Həmrəyliyi İli" çərçivəsində bölgədə həyata keçirilmiş tədbirlərin əhəmiyyətindən danışıb.



DQİDK-nın sədr müavini Gündüz İsmayılov Dövlət Komitəsi tərəfindən maarifləndirmə məqsədilə rayon və şəhərlərdə mütəmadi olaraq "dəyirmi masa"ların və konfransların keçirildiyini diqqətə çatdırıb. Bildirib ki, bu tədbirlərin keçirilməsi dövlət-din münasibətlərinin, İslam həmrəyliyinin, ölkəmizin tolerantlıq ənənələrinin qorunması və daha da inkişaf etdirilməsi məqsədi daşıyır.

Daha sonra çıxış edən Dövlət Komitəsinin Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdir müavini Ruslan Əsgərov dini radikalizmlə mübarizədə metodlarından bəhs edib.

Sonda konfrans iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# "HƏMRƏYLİK - DİNİ RADİKALİZM VƏ EKSTREMİZMƏ QARŞI MÜBARİZƏDƏ EFFEKTİV VASİTƏ"




Dekabrın 5-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və "KCA Deutag" şirkətinin birgə təşkilatçılığı ilə "Həmrəylik - dini radikalizm və ekstremizmə qarşı mübarizədə effektiv vasitə" mövzusunda tədbir keçirilib.

Tədbirdə DQİDK sədrinin müavini Səyavuş Heydərov, Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev və şirkətin nümayəndələri iştirak ediblər.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov çıxışında bildirib ki, bu gün Azərbaycanda dini durum sabitdir, eyni zamanda respublikamızda dini etiqad azadlığı yüksək səviyyədə təmin edilir. Onun sözlərinə görə, bütün dinlərin nümayəndələri ölkəmizdə bərabərhüquqlu şəkildə fəaliyyət göstərir. Natiq respublikamızda 2016-cı ili "Multikulturalizm İli", 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dünyada dini məzhəbçilik zəminində baş verən münaqişələrin həlli üzrə yol xəritəsini göstərməsini diqqətə çatdırıb.

Bəzi dairələr tərəfindən radikal yönümlü dini cərəyanların Azərbaycana ixrac olunmasına cəhdlərin edildiyini vurğulayan Səyavuş Heydərov bunun qarşısının qətiyyətlə alındığını bildirib. Dini radikalizmlə mübarizə tədbirlərindən də danışan sədr müavini dini ekstremizm, dini radikalizmlə mübarizədə həmrəyliyin vacibliyini diqqətə çatdırıb. S.Heydərov hər kəsi yad dini ideologiyalardan qorunmaq üçün müvafiq icazəsi olmayan ədəbiyyatlardan istifadə etməməyə, ümumiyyətlə, radikal dini təsirlərə düşməmək üçün daha diqqətli olmağa çağırıb.

Daha sonra çıxış edən DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin müdir müavini Ceyhun Əliyev İslam dinində radikalizm və ekstremizmin olmadığını, tam əksinə, İslam dininin sülh, qardaşlıq, birlik dini olduğunu Qurani-Kərimdən ayələr kontekstində dinləyicilərin diqqətinə çatdırıb.

Tədbirdə Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

# "AZƏRBAYCANDA DİNİ RADİKALİZM VƏ ONA QARŞI MÜBARİZƏ"

Dekabrın 26-da Binəqədi rayonu 283 saylı tam orta məktəbdə "Azərbaycanda dini radikalizm və ona qarşı mübarizə" mövzusunda seminar təşkil olunub. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Gündüz İsmayılov, Binəqədi Rayon İcra Hakimiyyəti (RİH) başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, məktəbin müəllimləri, valideynlər və şagirdlər iştirak ediblər.

Seminarı giriş sözü ilə açan məktəbin direktoru Tünzalə Zeynalova bu qəbildən olan tədbirlərin məktəblərdə keçirilməsinin yeniyetmələrin dini maariflənməsi, dini radikalizm meyillərinin qarşısının alınması baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Daha sonra DQİDK-nın sifarişi ilə çəkilən, dini fanatizm, radikalizm və ekstremizm meyillərinin fəsadlarından bəhs edən "Şəhadət" filmi nümayiş etdirilib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov çıxışında ölkədəki dini durumdan, dini icmaların fəaliyyətindən, dövlət-din münasibətlərindən və ölkədə dini radikalizmin qarşısının alınması istiqamətində görülən işlərdən söz açıb.

Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov isə dövlətimizi və cəmiyyətimizi dini radikalizm təhlükəsindən qorumaq, şagirdlərin dini cərəyanların təsiri altına düşmələrinin qarşısını almaq üçün bu cür maarifləndirici tədbirlərin mütəmadi keçirilməsinin vacibliyini qeyd edib.

Sonda mövzu ilə bağlı müəllim və şagirdləri maraqlandıran suallar cavablandırılıb.




# "İSLAM HƏMRƏYLİYİ İLİ" ÇƏRÇİVƏSİNDƏ KİTABLARDAN İBARƏT SƏRGİ KEÇİRİLİB




Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) "İslam Həmrəyliyi İli" çərçivəsində çap etdirdiyi nəşrlərin geniş ictimaiyyətə təqdim edilməsi məqsədilə dekabrın 20-də kitab sərgisi keçirilib.

Sərgidə Dövlət Komitəsinin rəhbərliyi, Bakı Dövlət Universitetinin (BDU) ilahiyyat fakültəsinin və Bakı İslam Universitetinin (BİU) müəllim-tələbə heyəti, eləcə də ictimaiyyətin nümayəndələri iştirak ediblər.

DQİDK sədrinin müavini Gündüz İsmayılov sərginin açılışında çıxış edərək "İslam Həmrəyliyi İli" çərçivəsində Dövlət Komitəsi tərəfindən milli-mənəvi dəyərlərimizin qorunması, xalqımızın tolerant və multikultural ideyalarının və ənənəvi dini dəyərlərinin təbliği, dövlət-din münasibətlərinin fəlsəfi-siyasi, hüquqi əsasları və sosial-analitik təhlili, həmçinin dini maarifləndirmə işinin təşkili məqsədilə bir sıra kitab, kitabça və digər məlumat materiallarının hazırlanaraq çap edildiyini bildirib. Sərgidə 100-dən artıq kitabın nümayiş etdirildiyini vurğulayan G.İsmayılov onların arasında Ulu Öndər Heydər Əliyevin dövlət-din münasibətləri sahəsində siyasətini, cənab Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərimiz, tolerantlıq mühiti ilə bağlı çıxışlarını əks etdirən kitabların da yer aldığını diqqətə çatdırıb.

Nəşrlərin çoxunun DQİDK və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) əməkdaşları, din xadimləri, imamlar, axundlar tərəfindən hazırlandığını deyən sədr müavini onların əksəriyyətinin Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə 2014-cü ildə imzaladığı Sərəncama əsasən ayrılan maliyyə vəsaiti hesabına çap olunduğunu bildirib.

QMİ-nin şöbə müdiri, BDU-nun kafedra müdiri professor Anar İsgəndərov çıxışında kitabların həyatımızdakı rolundan, mütaliənin vacibliyindən danışıb.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun direktoru, Dövlət Dil Komissiyasının üzvü, akademik Möhsün Nağısoylu çıxış edərək deyib ki, sərvətimiz olan kitablar bizim tariximiz, keçmişimizdir.

Tədbirdə, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun sektor müdiri Hacı Abdulla, AMEA-nın Fəlsəfə İnstitutunun Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri şöbəsinin müdiri Sakit Hüseynov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Analitika şöbəsinin müdiri Rəşad İlyasov da çıxış ediblər. Sərginin əhəmiyyətinə toxunan natiqlər qeyd ediblər ki, müasir dövrdə informasiyanın bolluğu müsbət cəhətləri ilə yanaşı, keyfiyyətsiz məlumatların ortaya çıxmasına da səbəb olur. Lakin Dövlət Komitəsinin təşəbbüsü ilə çap edilən bu nəşrlər vasitəsilə Azərbaycanda dini maarifçilik sahəsində keyfiyyətsiz məlumatların qarşısı ciddi şəkildə alınır. Sonra iştirakçılar sərgidə nümayiş etdirilən kitablarla tanış olublar.

# Fonda icraçı direktor və Himayəçilər Şurasının üzvləri təyin edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ilin oktyabr ayının 10-da ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə imzaladığı Fərmana əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru və Himayəçilər Şurasının üzvləri təyin edilib.

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının imzaladığı əmrə əsasən ilahiyyat elmləri üzrə fəlsəfə doktoru Mehman Qurban oğlu İsmayılov icraçı direktor vəzifəsinə təyin edilib. M.Q.İsmayılov indiyədək Dövlət Komitəsinin Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri vəzifəsində çalışıb.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Salman Musa oğlu Musayev Fondun Himayəçilər Şurasının sədri, üzvlüyünə isə Azərbaycan Respublikası Milli Məclisinin deputatı Sahibə Əli qızı Qafarova, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aynur Məmmədiyyə qızı Sofiyeva, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru və AMEA-nın Humanitar elmlər bölməsinin akademik katibi Teymur Həşim oğlu Kərimli və "Səs" Media Qrupunun rəhbəri Bəhruz Vaqif oğlu Quliyev təyin ediliblər.

# LƏNKƏRAN BÖLGƏSİNİN DİNİ-TARİXİ ƏNƏNƏLƏRİ VƏ MÜASİRLİK



Qədim tarixi-dini ənənələrə malik olan Azərbaycan müxtəlif xalqların, dinlərin və mədəniyyətlərin qarşılıqlı anlaşma şəraitində yaşadığı unikal bir məkandır. Xalqımızın zəngin milli-mənəvi və dini dəyərləri əsasında sülh, həmrəylik, birlik və bərabərliyə söykənən Azərbaycan mədəniyyəti formalaşıb. Bu mədəniyyətin ayrılmaz tərkib hissəsi kimi ilk insan məskənlərinin mövcud olduğu bölgələrdən biri də şərqdən Xəzər dənizi, qərbdən Talış dağları ilə əhatələnən Lənkəran bölgəsidir.

Lerik rayonu ərazisində-Zuvand çayının sol sahilində, Buzeyir kəndində yerləşən eyni adlı mağarada 1985-ci ildə aparılan arxeoloji tədqiqatlar nəticəsində tapılmış maddi-mədəniyyət nümunələri bölgənin ilk insanların yaşadığı ərazi kimi qədim tarixə malik olduğunu sübut edir.

Azərbaycanın cənubunda İslamın formalaşmasına qədər əsas din Atəşpərəstlik olub. Bugünədək də bölgə ərazisində atəşpərəstlərə məxsus dini ayinlərin izlərinə rast gəlinir. VII əsrdə ərəblərin Azərbaycana gəlişindən sonra İslam dini bölgə əhalisi tərəfindən qəbul edilmiş, ilk məscidlər inşa olunmağa başlanmışdır. Artıq VIII əsrin əvvəllərində İslam Azərbaycanda geniş yayılmış, möhkəmlənmiş və hakim dinə çevrilmişdir.

Lənkəran bölgəsində 62 yerli əhəmiyyətli dini-tarixi abidə vardır ki, onlardan 45-i məscid, 17-si ziyarətgahdır. Bu ziyarətgahlara misal olaraq Lənkəran rayonunun Cil kəndində yerləşən "Seyid Xəlifə" ziyarətgahı, Şıxakəran kəndində "Şeyx Zahid", Astara rayonunun Maşxan kəndində yerləşən "Əhməd ibn Kərim", Pensər kəndində yerləşən "Seyid Cəmaləddin", Lerik rayonunda yerləşən "Babagil" ziyarətgahı və başqalarını göstərmək olar.

Lənkəran bölgəsində dərin savadı, zəkası və xeyirxah əməlləri ilə məşhur olan İslam alimləri yetişmişdir. Onlar öz fəaliyyətlərində sülhü, həmrəyliyi təbliğ etmiş, əsl islami dəyərləri insanlara çatdırmışlar. Bunlardan Mirzə Rəcəb Vəssaf (v. 1925), Mirzə Məhəmmədhüseyn Axund (1878-1960), Qulamrza Qasımov (Şeyx Qələm-1883-1984), Yusif Əmirovu (Şeyx Yusif-1869-1948) göstərə bilərik. Müasir dövrdə isə 1949-cu ildə Lənkəran rayonunun Cil kəndində doğulmuş Şeyxülislam Allahşükür Paşazadə Qafqaz Müsəlmanları İdarəsinin sədri, MDB Dinlərarası Şurasının həmsədri, BMT Dinlərarası Məşvərət Şurasının üzvü və digər vəzifələrin sahibi olaraq təkcə Azərbaycanda deyil, dünyada nüfuzlu din xadimi kimi tanınır və hörmət edilir.

Bilindiyi kimi, Sovet hökumətinin dinə qarşı mübarizəsi məscidlərin, ziyarətgahların dağıdılması ilə nəticələnmişdir. Belə bir vəziyyətdə əhali məscidlərin qorunması məqsədilə onlardan klub, anbar, qalereya və digər təsərrüfat və mədəniyyət müəssisələri kimi istifadə etmişdir. Bölgə məscidləri də ölkənin digər yerlərindəki məscidlər kimi eyni taleyi yaşamışdır.

Yetmiş illik sovet əsarətində olan ölkəmizin müstəqilliyinin bərpasından və Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra dini ibadət yerlərinin tikilməsi, yenidən qurulması işləri geniş vüsət almışdır. Bir sözlə, milli-mənəvi və dini dəyərlərə qayıdış baş vermişdir. Nəticədə, bölgədə sovet dönəmində təyinatı dəyişdirilmiş 60 məscidlə yanaşı, yeni məscidlərin inşası nəticəsində hazırda bu rəqəm 4 dəfə artaraq 211-ə çatmışdır. Bu fakt dövlətin dini sahəyə göstərdiyi diqqətin bariz nümunələrindən biridir.

Lənkəran bölgəsində mövcud 211 məsciddən 93-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş dini icma fəaliyyət göstərir. Qeyd edək ki, təkcə 2015-2017-ci illərdə bölgədə 32 dini icma dövlət qeydiyyatına alınmışdır. Həmçinin, bölgədə DQİDK-də qeydiyyatdan keçmiş bir dini təhsil müəssisəsi - Lənkəran İslam Kolleci mövcuddur. Bundan başqa, bölgədə DQİDK-nın nəzarət markası ilə markalanmış dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məmulatların və dini məzmunlu başqa məlumat materiallarının satışını həyata keçirmək üçün razılıq almış bir ixtisaslaşdırılmış satış məntəqəsi də fəaliyyət göstərir.

Qeyd edək ki, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi dini durumun təhlili məqsədilə həm kitab, həm də elektron formada bölgənin dini xəritəsini hazırlamışdır. Dini xəritədə bölgə üzrə rayonlarda yerləşən məscidlər, ziyarətgahlar haqqında məlumatlar, tikilmə tarixləri, din xadimləri, dini icmalar və s. barədə məlumatlar öz əksini tapmışdır.

Tarixən olduğu kimi, bu gün də bölgədə İslam dininin hər iki ənənəvi məzhəb nümayəndələri qarşılıqlı anlaşma, hörmət, həmrəylik şəraitində və vəhdət halında yaşayırlar. Bu baxımdan ölkəmizdə unikal rayonlardan olan Astarada əhalinin 55%-i şiə, 45%-i sünni məzhəbinə mənsubdur. Rayonun Pensər kəndində iki məscid fəaliyyət göstərir. Vaxtilə kənddə mövcud olan, lakin son zamanlarda tərk edilən gözəl bir ənənə - Cümə namazı ənənəsi 2015-ci ilin avqustundan cənab Prezident İlham Əliyevin 2014-cü il 27 noyabr tarixli Sərəncamı ilə həyata keçirilən dini maarifləndirmə layihəsi, həmçinin kənd ağsaqqallarının, ziyalıların təşəbbüsü ilə yenidən bərqərar olmuş, vəhdət namazlarının qılınması davam etdirilmişdir. Belə ki, Pensər kəndində fəaliyyət göstərən "Cümə" (şiə) və "Hacı Teymur Cümə" (sünni) məscidlərinə ibadətə gələn dindarlar bir cümə günü şiə, növbəti cümə günü isə sünni məscidində toplaşaraq vəhdət namazı qılırlar. Pensər kəndində mövcud olan vəhdəti həm də mərhəmlik, Aşura mərasimlərində görə bilərik. Belə ki, bu mərasimlərdə kişilər "Hacı Teymur Cümə" məscidinə, qadınlar isə Pensər kənd "Cümə" məscidinə yığışaraq mərasimi birlikdə keçirirlər.

Bölgədə yaşayan ruslar, molokanlar, almanlar, yəhudilər öz milli və dini ənənələrini qoruyub saxlamış, bölgə əhalisi tərəfindən dözümsüzlüyə məruz qalmamışlar. Bölgədəki tolerantlığın əsas nümunəsini Lənkəran şəhərində, həmçinin rayonun Liman şəhəri və Bürcəli (keçmiş Alessevka) kəndində mövcud olan və bugünədək əhali tərəfindən qorunan rusların və digər millətlərin dəfn edildiyi qəbiristanlar təşkil edir. 2016-cı ilin fevral ayında Rus Provaslav kilsəsinin Bakı və Azərbaycan yeparxiyasının arxiyepiskopu Aleksandr İşein Lənkərana səfər edərək buradakı "Qardaşlıq" qəbiristanına baş çəkmişdir. Qeyd edək ki, bu məzarlıqda olan "gözətçi" otağı "dua evi" kimi rus-pravoslavlarının istifadəsinə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 27 noyabr 2014-cü il tarixli dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə imzaladığı Sərəncama əsasən bölgədə 25 dini maarifləndirmə layihəsi çərçivəsində 198 tədbir həyata keçirilmişdir. Kənd və qəsəbələrdə ictimaiyyət nümayəndələrinin, dini icma üzvlərinin, ziyalıların, ağsaqqalların, gənclərin iştirakı ilə keçirilən tədbirlər bölgədə mövcud olan dini və milli dözümlülüyün, multikultural mühitin daha da güclənməsinə töhfə olmaqla yanaşı, həm də ölkəmizdəki dövlət-din münasibətlərinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafı baxımından böyük əhəmiyyət kəsb edir.

Bölgə məscidlərində kitabxanaların yaradılması istiqamətində atılan addımların da əhalinin maariflənməsində əvəzsiz rol oynayır. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Prezidenti yanında Bilik Fondu tərəfindən Lənkəran rayonu Cil kənd "Hüseyniyyə", Astara rayonu Pensər kənd "Cümə" və Pensər kənd "Hacı Teymur Cümə" məscidlərinə müxtəlif adlarda dünyəvi kitablar hədiyyə olunmuş, kitab guşələri təşkil edilmişdir.

Dövlət Komitəsi rəhbərliyinin bölgəyə mütəmadi səfərləri, eyni zamanda Komitə sədrinin vətəndaşlar, dini icma sədrləri və din xadimləri ilə görüşü, onları narahat edən məsələlərlə maraqlanması dini sahədə olan məsələlərin həllində önəmli rol oynamışdır.

**Qağayı MƏMMƏDOV,**
*DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri*

# "DİNİ RADİKALİZMLƏ MÜBARİZƏNİN BAŞLICA YOLLARI: NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ"

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dekabr ayı ərzində Bakı şəhəri və respublikanın rayon icra hakimiyyətləri ilə birgə "Dini radikalizmlə mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda növbəti seminar-treninqlər keçirib. Bu seminar-treninqlər dekabrın 7-də DQİDK və Astara Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə rayonun Təngərüd kəndində; dekabrın 13-də Xəzər RİH-in birgə təşkilatçılığı ilə Mərdəkan qəsəbəsindəki 181 saylı tam orta məktəbdə; dekabrın 14-də isə Binə qəsəbəsindəki 117 saylı tam orta məktəbdə; dekabrın 18-də Pirallahı RİH-in birgə təşkilatçılığı ilə Pirallahı qəsəbəsindəki 186 saylı tam orta məktəbdə təşkil olunub.

Tədbirlərdə DQİDK, RİH və QMİ-nin səlahiyyətli nümayəndələri, din xadimləri, gənclər, müəllim və şagirdlər iştirak ediblər.




Seminar-treninqlərdə dövlətin dinə və din xadimlərinə göstərdiyi qayğıdan danışılıb. Eyni zamanda, natiqlər dini radikal və ekstremist qrupların təbliğat və yayılma metodlarına toxunublar, bunlara qarşı mübarizədə milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan İslam dəyərlərinin düzgün təbliğ edilməsinin əhəmiyyətindən danışıblar.

Çıxışlarda, həmçinin 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunmasının önəminə toxunulub, bu təşəbbüsün İslam dünyasına mesaj xarakteri daşıdığı bildirilib. Qeyd olunub ki, müsəlman aləmində baş verən proseslər İslam həmrəyliyini zəruri edir və bu həmrəylik dinlərarası dialoq üçün gözəl imkan kimi dəyərləndirilməlidir.

Seminar-treninqlərdə Dövlət Komitəsinin sifarişi ilə çəkilən "Şəhadət" sənədli filmi nümayiş etdirilib, həmçinin iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# PREZİDENTİN SƏRƏNCAMI UĞURLA İCRA OLUNUR

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama uyğun olaraq 2017-ci ilin dekabr ayı ərzində də müxtəlif bölgələrdə tədbirlər keçirilib. Cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:*

**1 dekabr** - Lənkəran rayonu Şağlaser kənd məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və İslam həmrəyliyi" layihəsi çərçivəsində Şağlaser kənd tam orta məktəbində; Ağcabədi rayonu Muğanlı kəndi "Seyid İsmayıl Ağa" məscidi dini icmasının "İslam həmrəyliyi dövrün tələbidir" layihəsi çərçivəsində rayonun Şahsevən kəndində; Saatlı rayonu Qarayevkənd kənd məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və İslam həmrəyliyi" mövzusunda;

**4 dekabr** - Zaqatala rayonu Yolayrıc kənd məscidi dini icmasının "Dini abidələrimiz" layihəsi çərçivəsində "İslam və tarixi abidələr" mövzusunda; Abşeron rayonu Saray qəsəbəsi "İmam Hüseyn" məscidi dini icmasının "İslamda həmrəylik: məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində;

**5 dekabr** - Şabran rayonu Zeyvə kənd məscidi dini icmasının "Ənənəvi İslam dinində həmrəylik prinsipləri" layihəsi çərçimvəsində Ağbaş kəndində;

**6 dekabr** - Ağstafa rayon Dağ Kəsəmən kənd "Eyyub ağa" məscidi dini icmasının "İslam həmrəyliyi sülhə və əmin-amanlığa çağırışdır" layihəsi çərçivəsində "İslam həmrəyliyi və dini radikalizm" mövzusunda; Göygöl şəhər Heydər məscidi dini icmasının "İslam həmrəyliyi sülhə və tolerantlığa çağırır" layihəsi çərçivəsində "İslam həmrəyliyi gənclərin gözü ilə" mövzusunda rayonun İlqar Hüseynov adına 1 saylı tam orta məktəbində; Quba rayonu Ağbil kənd məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan modeli: keçmişdən müasir dövrə" layihəsi çərçivəsində; Cəlilabad rayonu Maşlıq kəndi "Şəhidlər" məscidi dini icmasının "İslam həmrəyliyi: Azərbaycan nümunəsi" layihəsi çərçivəsində Nizami Alışov adına Maşlıq kənd tam orta məktəbində;

**7 dekabr** - Beyləqan rayonu Qarallar kənd məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "Dini radikalizm İslam həmrəyliyinə maneədir" mövzusunda;

**8 dekabr** - Ağdaş şəhər dindarları məscidi dini icmasının "İslam həmrəyliyi ili: həmrəyliyə dəvət və sülhə çağırış" layihəsi çərçivəsində "Müasir dövrdə İslam həmrəyliyinin əhəmiyyəti" mövzusunda Ağdaş rayonu Səməd Vurğun adına 1 saylı tam orta məktəbində; Sabirabad rayonu Dadaşbəyli kənd məscidi dini icmasının "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində "Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyi ideyasının rolu" mövzusunda; Lənkəran rayonu Şağlaser kənd məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və İslam həmrəyliyi" layihəsi çərçivəsində;

**11 dekabr** - Göygöl şəhər Heydər məscidi dini icmasının "İslam həmrəyliyi sülhə və tolerantlığa çağırır" layihəsi çərçivəsində "İslam həmrəyliyinin əsas mahiyyəti" mövzusunda;

**13 dekabr** - Zaqatala rayonu Yolayrıc kənd məscidi dini icmasının "Dini abidələrimiz" layihəsi çərçivəsində Paşan kənd tam orta məktəbində "Dini abidələrimiz birgəyaşayışımızın təminatçısı kimi" mövzusunda; Quba rayonu Ağbil kənd məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan modeli: keçmişdən müasir dövrə" layihəsi çərçivəsində rayonun Əlibəyqışlaq kəndində; Lənkəran rayonu Ləj kənd məscidi dini icmasının "İslam humanizm və həmrəylik dinidir" layihəsi çərçivəsində rayonun Haftoni qəsəbəsində; Ağstafa rayon Dağ Kəsəmən kənd "Eyyub ağa" məscidi dini icmasının "İslam həmrəyliyi sülhə və əmin-amanlığa çağırışdır" layihəsi çərçivəsində "Ənənəvi İslam və milli-mənəvi dəyərlərimiz" mövzusunda; Saatlı rayonu Qarayevkənd kənd məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində "Həmrəylik dini radikalizmə qarşı mübarizədə effektiv vasitə kimi" mövzusunda; Salyan rayonu Şorsulu kənd məscidi dini icmasının "İslamda həmrəyliyin əhəmiyyəti" layihəsi çərçivəsində; Zərdab rayonu Xanməmmədli kənd məscidi dini icmasının "İslam həmrəyliyi-müsəlman dünyasının xilası" layihəsi çərçivəsində "Etnokonfliktlərin həlli yolu kimi - İslamda həmrəylik" mövzusunda;

**14 dekabr** - Qazax şəhər "Cümə" məscidi dini icması "İslam sülh, həmrəylik və qardaşlıq dinidir" layihəsi çərçivəsində "Gənclərin dini radikalizmdən qorunmasında maarifləndirmənin rolu" mövzusunda tədbir keçirib.

**15 dekabr** - Lənkəran rayonu Ləj kənd məscidi dini icmasının "İslam humanizm və həmrəylik dinidir" layihəsi çərçivəsində rayonun Kərgəlan kəndində; Ağdaş şəhər dindarları məscidi dini icmasının "İslam həmrəyliyi ili: həmrəyliyə dəvət və sülhə çağırış" layihəsi çərçivəsində "Ailənin cəmiyyət və dində yeri" mövzusunda; Abşeron rayonu Saray qəsəbə "İmam Hüseyn" məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "Azərbaycan dinlərarası tolerantlığın məkanı kimi" mövzusunda;

**19 dekabr** - Sabirabad rayonu Dadaşbəyli kənd məscidi dini icmasının "İslam həmrəyliyi və milli-mənəvi dəyərlərimiz" layihəsi çərçivəsində "Vətənə sədaqət, milli-mənəvi dəyərlərə hörmət" mövzusunda; Astara rayon Şahağacı kənd məscidi dini icmasının "İslam həmrəyliyinin təbliğində məzhəblərarası dialoq" layihəsi çərçivəsində rayonun Şahağacı kənd 2 saylı tam orta məktəbində; Salyan rayonu Kürsəngi kəndi "Hacı Səftər" məscidi dini icmasının "İslam həmrəyliyi - sülhə aparan yol" layihəsi çərçivəsində; Cəlilabad rayonu Maşlıq kəndi "Şəhidlər" məscidi dini icmasının "İslam həmrəyliyi: Azərbaycan nümunəsi" layihəsi çərçivəsində "Azərbaycan multikultural dəyərlər diyarıdır" mövzusunda; Şabran rayonu Zeyvə kənd məscidi dini icmasının "Ənənəvi İslam dinində həmrəylik prinsipləri" adlı layihəsi çərçivəsində Şabran şəhər 4 saylı tam orta məktəbdə;

**20 dekabr** - Beyləqan rayonu Qarallar kənd məscidi dini icmasının "İslamda həmrəylik məzhəblərarası tolerantlıq müstəvisində" layihəsi çərçivəsində "Dini və milli kimliyimizin vəhdəti" mövzusunda; Kürdəmir şəhər "İmam Rza" məscidi dini icmasının "İslam həmrəylik və birliyə çağırış dinidir" layihəsi çərçivəsində; Göygöl şəhər Heydər məscidi dini icmasının "İslam həmrəyliyi sülhə və tolerantlığa çağırır" layihəsi çərçivəsində rayonun Gənclər evində; Ağstafa rayon Dağ Kəsəmən kənd "Eyyub ağa" məscidi dini icmasının "İslam həmrəyliyi sülhə və əmin-amanlığa çağırışdır" layihəsi çərçivəsində "İslamda ailə modeli" mövzusunda; Quba rayonu Ağbil kənd məscidi dini icmasının "İslam həmrəyliyinin Azərbaycan modeli: keçmişdən müasir dövrə" layihəsi çərçivəsində;

**21 dekabr** - Masallı rayonu Miyankü kənd məscidi dini icmasının "İslam dini: sülh və vəhdətə çağırış" layihəsi çərçivəsində Nadir Aslanov adına Miyankü kənd tam orta məktəbində "İslam dəyərləri və mənəvi irsimiz" mövzusunda; Saatlı rayonu Qarayevkənd məscidi dini icmasının "İslamda həmrəyliyin və tolerantlığın əhəmiyyəti" layihəsi çərçivəsində "İslam həmrəyliyi və müasir gəncliyimiz" mövzusunda; Qazax şəhər "Cümə" məscidi dini icmasının "İslam sülh, həmrəylik və qardaşlıq dinidir" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərin qorunmasında İslam dininin rolu" mövzusunda; Zaqatala rayonu Yolayrıc kənd məscidi dini icmasının "Dini abidələrimiz" layihəsi çərçivəsində Höytala kənd orta məktəbində; Biləsuvar rayonu İsmətli kənd "Əbülfəzl" məscidi dini icmasının "İslam həmrəyliyi - sülhə aparan yol" layihəsi çərçivəsində;

**22 dekabr** – Saatlı rayonu Qazanbatan kənd məscidi dini icmasının "İslam həmrəyliyi sülhə və əmin-amanlığa çağırışdır" layihəsi çərçivəsində "İslam humanizm və həmrəylik dinidir" mövzusunda.

**26 dekabr** – Qazax şəhər "Cümə" məscidi dini icmasının "İslam sülh, həmrəylik və qardaşlıq dinidir" layihəsi çərçivəsində "İslam dini insanları birliyə çağırır" mövzusunda; Masallı rayonu Boradigah qəsəbəsi "Həzrəti Əli" məscidi dini icmasının "Azərbaycanda İslam Həmrəyliyi: dünən və bu gün" layihəsi çərçivəsində "Azərbaycanda multikultural dəyərlər və tolerantlıq ənənələri" mövzusunda İnqilab Nağıyev adına Boradigah qəsəbə 2 saylı tam orta məktəbində;

**27 dekabr** - Lənkəran rayonu Ləj kənd məscidi dini icmasının "İslam humanizm və həmrəylik dinidir" layihəsi çərçivəsində; Astara rayon Şahağacı kənd məscidi dini icmasının "İslam həmrəyliyinin təbliğində məzhəblərarası dialoq" layihəsi çərçivəsində rayonun Şahağacı kənd 1 saylı tam orta məktəbində; Bərdə rayon Lənbəran kənd "Hacı Həmid" məscidi dini icmasının "İslam həmrəyliyi: ortaq dəyərlər əsasında" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz əsasında həmrəylik çağırışları" mövzusunda Lənbəran kənd orta məktəbində baş tutub.

# "İSLAM HƏMRƏYLİYİ İLİ" ÇƏRÇİVƏSİNDƏ TƏDBİRLƏR KEÇİRİLİB

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) dekabr ayı ərzində digər qurumlarla birgə "İslam Həmrəyliyi İli" çərçivəsində bir sıra tədbirlər keçirib. Bu qəbildən olan tədbirlər:*

**1 dekabr** - Xətai Rayon İcra Hakimiyyəti (RİH) və DQİDK-nın Bakı şəhəri üzrə şöbəsinin birgə təşkilatçılığı ilə Xətai rayonu İ.Məmmədov adına 261 nömrəli məktəb-liseydə "İslam həmrəyliyi zamanın tələbinə cavab verən qlobal çağırışdır" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba RİH və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə Quba şəhəri "Ərdəbil" məscidində;

* * *

**13 dekabr** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı RİH-in birgə təşkilatçılığı ilə Masallı rayonu Elşad Ağayev adına Hişkədərə kənd tam orta məktəbində "İslam həmrəyliyi radikalizmə və ekstremizmə qarşıdır" mövzusunda;

* * *

**19 dekabr** – DQİDK və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Yasamal rayonu 31 nömrəli tam orta məktəbdə "Gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi və dini radikalizmlə mübarizə" mövzusunda;

* * *

**20 dekabr** – DQİDK və Binəqədi RİH-in birgə təşkilatçılığı ilə Binəqədi rayonu R.Əliyev adına 3 saylı tam orta məktəbində; DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, QMİ və Lənkəran ŞİH-in birgə təşkilatçılığı ilə "İslam həmrəyliyinin təbliğində din xadimlərinin rolu" mövzusunda; DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi və Qobustan RİH-in birgə təşkilatçılığı ilə Qobustan rayonu Cəyirli kənd A.Quliyev adına tam orta məktəbdə "Dini radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda;

* * *

**21 dekabr** – DQİDK və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Səbail rayonu 91 nömrəli tam orta məktəbdə "Gənclərin milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyəsi" mövzusunda baş tutub.

# AZƏRBAYCANIN APOSTOL PREFEKTİ YEPİSKOP RÜTBƏSİNƏ LAYİQ GÖRÜLÜB



Vatikan radiosunun rəsmi saytının verdiyi xəbərə görə, Müqəddəs Salsalı Fransisk Cəmiyyətindən (don Boskonun Saleziyalılar Cəmiyyətindən) olan Azərbaycanın apostol prefekti, keşiş Vladimir Fekete Müqəddəs Ata tərəfindən Munisipdə titulyar kafedrası olan yepiskop rütbəsinə layiq görülüb.

Vladimir Fekete ata 1955-ci ildə Bratislavada anadan olub. 1979-cu ildə Komenski adına Universitetin təbiət elmləri fakültəsini bitirib. 1981-ci ildə gizli yolla Müqəddəs Salsalı Fransisk Cəmiyyətində əbədi and içib və 1983-cü ildə Berlində keşiş rütbəsinə keçirilib. 1990-cı ildə kommunizm rejimi süqut edənə qədər Slovakiyada geoloq işləyib.

Ötən əsrin 90-cı illərində Vyana Universitetində və Lyublin Katolik Universitetində ilahiyyat üzrə təhsilini davam etdirib, bu universitetləri bitirərək ilahiyyat üzrə magistr dərəcəsi alıb. Saleziyalıların konqreqasiyasında müxtəlif vəzifələr tutub: rahiblər əyalətinin inspektorunun vikarisi (1993-1999), Bratislava rahiblər əyalətinin inspektoru (1999-2005), novisiyalıların rəhbəri (2006-2009). 2009-cu ildə Bakıda sui iuris missiyasının keşişi təyin edilib. 2011-ci il avqustun 4-də həmin missiya Azərbaycanın apostol prefekturasına çevrildiyi vaxtdan prefekt vəzifəsini tutur.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Qeydiyyat

**Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 08 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117A-763
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Cəbrayıl rayonu, Cocuq Mərcanlı kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Elman Seyfəddin oğlu Piriyev

**Sumqayıt şəhəri Hacı Zeynalabdin qəsəbəsi "Hacı Bəyverdi" məscidi dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117C – 764
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Sumqayıt şəhəri Hacı Zeynalabdin qəsəbəsi "Hacı Bəyverdi" məscidi dini icması
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Əbdülrəhim Əhməd oğlu Əhmədov

**Ucar rayonu Alpout kəndi Həzrəti Əbəlfəzl adına "Cümə" məscidi dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117D-765
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ucar rayonu Alpout kəndi Həzrəti Əbəlfəzl adına "Cümə" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Ağaismayıl Nurəddin oğlu İsmayılov

**Ucar rayonu Müsüslü kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117D-766
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Ucar rayonu Müsüslü kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Samir Fəti oğlu Həmidov

**Lənkəran rayonu Şovu kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117C-767
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu Şovu kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Qurban Həsənəli oğlu Hüseynov

**Lənkəran rayonu Diryan kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117C-768
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Lənkəran rayonu Diryan kənd məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Afiq Abuzər oğlu Qulizadə

**İmişli şəhər "İmam Hüseyn" məscidi dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117A-769
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: İmişli şəhəri, Araz küçəsi "İmam Hüseyn" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Sabir Hüseyn oğlu Qasımov

**Saatlı rayonu Çolpı kəndi "İmam Əli" məscidi dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117C-770
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Saatlı rayonu Çolpı kənd "İmam Əli" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Möhübbət Malik oğlu Əhmədov

**Masallı rayonu Ərkivan qəsəbəsi "Şeyx Səfi" məscidi dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117C-771
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Masallı rayonu Ərkivan qəsəbəsi "Şeyx Səfi" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Cəbrayıl Qələmirzə oğlu Məmmədov

**Neftçala rayonu Şirvanlı kəndi "Həsənağa" məscidi dini icması**

Qeydiyyat tarixi: 22 dekabr 2017-ci il
Qeydiyyat №-si: 100117C-772
Maliyyə ili: 01 yanvar – 31 dekabr
Hüquqi ünvanı: Neftçala rayonu, Şirvanlı kəndi, "Həsənağa" məscidi
Fəaliyyət ərazisi: Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
Fəaliyyət predmeti və məqsədi: Dini ibadət və dini tələbatın ödənilməsi
Qanuni təmsilçisi: Aqşin Rafiq oğlu Səlimov

## Dəyişiklik

**"Həyat sözü" Xristian dini icması**

Qeydiyyat tarixi: 24 may 2012-ci il
Qeydiyyat №-si: 100110A1 – 549
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Fərhadov Yusif Tələt oğlu dini icmanın təsisçisi və dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
Dəyişikliklərin qeydiyyat tarixi: 30 noyabr 2017-ci il

**Ucar rayonu Boyat kəndi "İmam Hüseyn" məscidi dini icması**

Qeydiyyat tarixi: 15 fevral 2010-cu il
Qeydiyyat №-si: 100110A1 – 219
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Əzizov Mədət Qulu oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və Rzayev Xası Soltan oğlu, Rzayev Qanı Məmməd oğlu, Güləliyev Murad Əlihüseyn oğlu, İsrayılov Məhərrəməli Kərim oğlu, Mehdiyev Mürvət Həsrət oğlu, İsrəfilov Zahid Məmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
Dəyişikliklərin qeydiyyat tarixi: 11 dekabr 2017-ci il

## Ləğv olunma

**Abşeron rayonu Hökməli qəsəbəsi "Hacı Məhəmməd Həsənbəy" məscidi dini icması**

Qeydiyyat tarixi: 13.06.1197-ci il
Qeydiyyat №-si: 166
Abşeron rayonu Hökməli qəsəbəsi "Hacı Məhəmməd Həsənbəy" məscidi dini icması təsisçilərinin 27.11.2017-cı il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 11 dekabr 2017-ci ildə qeydə alınıb.

**Siyəzən rayonu Yenikənd kənd məscidi dini icması**

Qeydiyyat tarixi: 15.05.2008-ci il
Qeydiyyat №-si: 1308 Si1 - 484
Siyəzən rayonu Yenikənd kənd məscidi dini icması təsisçilərinin 29.11.2017-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
Ləğv olunması: 26 dekabr 2017-ci ildə qeydə alınıb.

# CƏMİYYƏT və DİN

№ 12 (317) / DEKABR 2017-ci il


## Bibiheybət dünyanın ən gözəl məscidləri sırasında



ABŞ-ın məşhur memarlıq jurnalı "The Architectural Digest" dünyanın ən gözəl məscidlərinin siyahısını hazırlayıb.

Siyahıda Bakıdakı Bibiheybət məscidi də yer alıb. Jurnal dünyanın ən gözəl memarlıq nümunələrindən olan məscidlər haqqında məqaləsini "Məscidlər: İslamın gözəlliyi" kitabı əsasında hazırlayıb.

Azərbaycanlı dizayner Leyla Uluxanlının müəllifi olduğu kitabda dünyanın ən gözəl 53 məscidindən bəhs edilir.

Məqalədə ecazkar məscidlər arasında Parisin Böyük Məscidi (Fransa), Şeyx Lütfullah Məscidi (İsfahan, İran), Qaraviyyin Məscidi (Fəs, Mərakeş), Qroznının ürəyi (Əhməd Kadırov məscidi) (Çeçenistan), Şeyx Zayed məscidi kompleksinin (Əbu Dabi, BƏƏ) adı çəkilir.

## "Gartner": 2020-ci ildə süni intellekt 2,3 milyon yeni iş yeri yaradacaq

Süni intellekt texnologiyalarının inkişafı və geniş tətbiqi robotların iş yerlərində tez-tez insanları əvəzləməsi ilə nəticələnir. Eyni zamanda, kompüterlər yeni iş yerləri yaradır və bir neçə il sonra onların sayı süni intellektə görə işdən çıxarılanların sayını üstələyəcək.

"Gartner" analitiklərinin proqnozuna görə, 2020-ci ildə süni intellekt 2,3 milyon yeni iş yeri yaradacaq.

Süni intellektin kadr bazarına təsir dərəcəsi sahədən asılı olacaq: bəzi sahələrdə iş yerlərinin sayı bir neçə il ərzində azalacaq, digər sahələrdə, məsələn, səhiyyə, təhsil və dövlət sektorunda bu göstərici ən azı 2019-cu ilədək artacaq.

Sürücüsüz avtomobillər, robot dayələr, insanların işə qəbulu üzrə avtomatik sistemlər və digər süni intellekt texnologiyaları insanları narahat edir. "Pew Research" şirkəti bu ilin oktyabrında amerikalılar arasında keçirilmiş sorğunun nəticələrini dərc edib. Məlum olub ki, ABŞ əhalisinin 70 faizi avtomatlaşdırmadan və iş yerini itirməkdən qorxur.



**Yadigar söz**

**Abdulla Şaiq**

*Azərbaycanlı şair, yazıçı*

**Hər millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Yanvar - 2018)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:37 | 08:04 | 12:44 | 15:44 | 17:40 | 18:46 |
| 2 | 06:37 | 08:04 | 12:44 | 15:45 | 17:41 | 18:47 |
| 3 | 06:37 | 08:04 | 12:45 | 15:45 | 17:42 | 18:47 |
| 4 | 06:37 | 08:04 | 12:45 | 15:46 | 17:43 | 18:48 |
| 5 | 06:37 | 08:04 | 12:46 | 15:47 | 17:44 | 18:49 |
| 6 | 06:37 | 08:04 | 12:46 | 15:48 | 17:45 | 18:50 |
| 7 | 06:37 | 08:04 | 12:47 | 15:49 | 17:46 | 18:51 |
| 8 | 06:37 | 08:04 | 12:47 | 15:50 | 17:47 | 18:52 |
| 9 | 06:37 | 08:03 | 12:48 | 15:51 | 17:47 | 18:52 |
| 10 | 06:37 | 08:03 | 12:48 | 15:52 | 17:48 | 18:53 |
| 11 | 06:37 | 08:03 | 12:48 | 15:53 | 17:49 | 18:54 |
| 12 | 06:37 | 08:03 | 12:49 | 15:54 | 17:50 | 18:55 |
| 13 | 06:37 | 08:03 | 12:49 | 15:55 | 17:52 | 18:56 |
| 14 | 06:37 | 08:02 | 12:50 | 15:56 | 17:53 | 18:57 |
| 15 | 06:36 | 08:02 | 12:50 | 15:57 | 17:54 | 18:58 |
| 16 | 06:36 | 08:01 | 12:50 | 15:59 | 17:55 | 18:59 |
| 17 | 06:36 | 08:01 | 12:51 | 16:00 | 17:56 | 19:00 |
| 18 | 06:35 | 08:01 | 12:51 | 16:01 | 17:57 | 19:01 |
| 19 | 06:35 | 08:00 | 12:51 | 16:02 | 17:58 | 19:02 |
| 20 | 06:35 | 07:59 | 12:52 | 16:03 | 17:59 | 19:03 |
| 21 | 06:34 | 07:59 | 12:52 | 16:04 | 18:00 | 19:04 |
| 22 | 06:34 | 07:58 | 12:52 | 16:05 | 18:01 | 19:05 |
| 23 | 06:33 | 07:58 | 12:52 | 16:07 | 18:03 | 19:06 |
| 24 | 06:33 | 07:57 | 12:53 | 16:08 | 18:04 | 19:07 |
| 25 | 06:32 | 07:56 | 12:53 | 16:09 | 18:05 | 19:08 |
| 26 | 06:32 | 07:55 | 12:53 | 16:10 | 18:06 | 19:09 |
| 27 | 06:31 | 07:55 | 12:53 | 16:11 | 18:07 | 19:10 |
| 28 | 06:30 | 07:54 | 12:54 | 16:12 | 18:08 | 19:11 |
| 29 | 06:30 | 07:53 | 12:54 | 16:14 | 18:10 | 19:12 |
| 30 | 06:29 | 07:52 | 12:54 | 16:15 | 18:11 | 19:14 |
| 31 | 06:28 | 07:51 | 12:54 | 16:16 | 18:12 | 19:15 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Roma Papası Milad bayramı ilə bağlı müraciatində Suriyadan danışıb



Roma Papası I Fransisk Milad bayramı münasibətilə dünya katoliklərinə müraciət edib. Papa dünyada münaqişələrin dayandırılmasına çağırıb.

Vatikanda Müqəddəs Pyotr kilsəsindən müraciət edən I Fransisk Yaxın Şərqdə, Suriyada, eləcə də Ukraynada olan uşaqları unutmamağa çağırıb.

Roma Papası qeyd edib ki, dünyada "müharibələr küləyi əsir" və şəxsiyyətin, ətraf mühitin və sosial sahənin tənəzzülü davam edir.

## UNICEF-in yeni rəhbəri məlum olub



Amerikalı Henrietta For BMT-nin Uşaq Fondu (UNICEF) rəhbəri vəzifəsində Entoni Leyki əvəzləyəcək. Məlumata görə, H.For 2018-ci ilin yanvarın 1-dən etibarən səlahiyyətlərinin icrasına başlayacaq.

Bundan əvvəl Henrietta For ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD), Dövlət Departamentində çalışıb, Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi ilə əməkdaşlıq edib, "Holsman International" şirkətinin direktorlar şurasının sədri və baş direktoru olub.


Baş redaktor **Səyyad ARAN**

**Redaksiya şurası:**
**Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Raman DADAŞOV** *(Məsul katib).*

**Ünvan:** AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
**Telefon:** 492 65 23; 437 31 15
**Tel/fax:** 497 15 39
492 58 29; 437 31 15
**E-mail:** redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 365

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894